QUMRU QÜDRƏT



# GÜNƏŞLƏ BARIŞMIŞAM

**Redaktor, ideya və layihə rəhbəri, baş tərtibatçı: Vidadi Turan Ağdamlı- Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü, şair publisist, Dövrün Vətənpərvər şairi, Xalqın nüfuzlu ziyalısı, Qızıl qələm, Ulu Öndər, Xəlil Rza Ulutürk, Vintsas, Ziyadar, Azərbaycan bayrağı, Qarabağ Azərbaycandır!, Ali Baş Komandan, Vətən, Səməd Vurğun, Azərbaycanın fəxri, Turan yolu, Bayram Bayramov, Həkəri, Xurşidbanu Natəvan, Şərəfli ömür yolu, Mustafa Museyiboğlu diplomları ilə mükafatlandırılmışdır. Həkəri qəzetinin şöbə müdürü, Radio FM-in xüsusi müxbiri,YİN-nin Ağsaqqallar Şurasının sədri.**

**Texniki redaktor: Mehri Ağdamlı-şair publisist, İrak-Türkmən Yazıçılar Birliyinin üzvü, Dövrün ziyalısı, Vətənpərvər şairə, Qızıl qələm, Ulu Öndər, Xəlil Rza Ulutürk, Azərbaycan bayrağı mükafatçısı. Ali Baş Komandan, Vətən, Səməd Vurğun , Vidadi-70 , Vintsas, Ziyadar fəxri diplomların mükafatçısı, YİN-in üzvü.**

**Korrektor : Təranə Tunar-şair publisist, Bayram Bayramov, Xurşidbanu Natəvan, Vidadi-70, Vintsas , Ziyadar və YİN-in Zəfər günü fəxri diplomların mükafatçısıdı. YİN-in Qaradağ r/n sədr müavini.**

**Dzaner: Fariz Məhərrəmov .**

**“Günəşlə barışmışam”** şeirlər kitabı Bakı “Maarif” nəşriyyatı, 2022. xxx səh.

**“Heroqlif”**

**İSBN:**

Əsədova Qumru Teymur qızı 18 mart 1956-cı ildə NMR-ın Babək rayonunun Qoşa-Dizə kəndində anadan olmuşdu. Təxəllüsü Qumru  Qüdrət Naxçıvanlıdır. O, 1973-cü ildə Babək qəsəbə tam orta məktəbinin onuncu sinfini bitirib. Hələ məktəbdə oxuduğu vaxtlardan şeirlər yazmış, "Göyərçin" jurnalında və "Azərbaycan gəncləri" qəzetində dərc etdirmişdir. 1975-ci ildə ailə qurmuş, üç övlad böyütmüşdür. Övladları ali təhsillidir. Bu illərdə ara-sıra şeirlər yazsada çap olunmamışdı. 1997-98-ci illərdə Naxçıvan radiosunda şeirləri müntəzəm olaraq səslənmişdir. 1999-cu ildə ilk dəfə "Ali Baş Komandan" və "Məni salma odlara" şeirləri dərc olunmuşdur. "Ali Baş Komandan" şeirinə görə o, Yazıçılar Birliyinə dəvət edilərək Hüseyn İbrahimovun kitabı ilə təltif olunmuşdur. 1999-cu ildən "Şərq qapısı", "Şərurun səsi", "Dedektiv", "Ekspres" qəzetlərində şeirləri çap olunmuşdur. 2005-ci ildə onun "Bir ürəyin nəğmələri" adlı ilk kitabı, ardıncada "Nakam eşqin ninnisi" adlı ikinci kitabı nəşr olunmuşdur. 2011-ci ildə "Yada sal məni", "Məni bağışla", 2021-ci ildə "Mənə qərib deməyin", "Zəfərə addım-addım" kitabları nəşr olunmuşdur. Onun haqqında Sona  Teymurbəylinin "NMR-sında yazıb yaradan qadınlarımız" adlı elmi əsərində dərin məlumat verilmişdir. Onun Ulu Öndər haqqında yazdığı şeirləri Süleyman Rzazadənin "Zamana şöhrətdir sənin qüdrətin" adlı Ulu Öndərin 95 illiyinə həsr etdiyi kitabda dərc olunmuşdur. O, 2005-ci ildən Bakı şəhəri Buzovna qəsəbəsində ailəsi ilə birlikdə yaşayır. "Həyat bizi səsləyir", "Sevgilim yuxunu dənizə danış", "Həsrətin sonu", "Tər çiçəklər", "Gəlin gedək Ağdama", "Zirvədəkilər" antologiyalarında şeirləri çap olunub. "Azərbaycan bayrağı", "Naxçıvanın fəxri şairəsi", "Zəfər", "Vətənpərvər şairə", "Vidadi 70" diplomları ilə təitif olunub. "Günəşlə barışmışam" adlı kitabı onun yeddinci kitabıdır.

# ÖN SÖZ

Mən Əhmədova Qumru Teymur qızı “Günəşlə barışmışam” kitabının əl yazmasını oxuduqca dərin fikrə getdim. Onun yazdıqları hamısı həyatdan götürülmüş motivlərdi. Şairəin yaradıcılığın bir neçə yerə bölmək olar. Əl yazmasını diqqətlə oxudum. Belə qənaətə gəldim ki, bu kitab gözəl bir əsərdir. Eyni zamanda bu əsər yuxusuz gecələrin, gərgin axtarışların bəhrəsidir. Xüsusiylə dil-üslub xüsusiyyətləri çox xoşuma gəldi. Mən şaiərin şeirlərini oxuduqca onun şeriyyət dünyasında tutduğu yolu açıq və aydın gördüm. Mənə elə gəlir ki, sairənin Vətən, ana-ata və övlad sevgisiylə, ümumiyyətlə yazdığı seirlər müasir Azərbaycanımın hər bir gənc oxucusuna örnəkdi. Hər bir gənc bu şeirləri oxuduqca sevginin müqəddəsliyin duyur, Vətən, ana-ata, övlad sevgisini anlayır və bu sevgiylə, ulvü hislərlə yaşayır, özündə məsulliyyət hiss edib müqəddəs ali sevgi yollarında addımlamağı bacarır. Bəzən oxucu bu misralarda ali sevginin həm şirinliyini, həm də acısını anlayır . Lazım gəlsə bu sevginin həsrəti ilə yanmağı bacarır. Onun şeirlərində, Vətən həsrəti, Vətənə bağlılıq gözəl çalarlarla verilmişdir. O, öz yazıları ilə tez-tez xəyalən Qarabağ torpaqlarını dolanır, onların həsrəti ilə yaşadığını bildirir. Şairə şerinin birində Vətən həsrətiylə yazır:

***Götür çıxar məni evdən,***
***Mən gedərəm yoxsa əldən.***
***Ürəyimdə nisgilim var,***
***Ayrılmışam ağır eldən.***

***Qəlbim dolub qüssə ilə,***
***Gözümdə yaş gilə - gilə,***
***Toxunmayın sarı telə,***
***Ayrılmışam ağır eldən.***

*Orda qalıb qoca atam,*
*Necə gedib ora çatam?*
*Fikir qoymur gecə yatam,*
*Ayrılmışam ağır eldən.*

*Gündüzləri gəzəmmirəm,*
*Daranmıram, bəzənmirəm,*
*Ayrılığa dözəmmirəm,*
*Ayrılmışam ağır eldən.*

*Qəribliyim mənə yükdü,*
*Çəkəmmirəm çox böyükdü,*
*Fikirlərim yenə hürkdü,*
*Ayrılmışam ağır eldən.*

*Qumru, bəsdi ötdün dil-dil,*
*Dar qəfəsdə oldun bülbül,*
*Gözlərinin yaşını sil.*
*Sən özünü salma əldən,*
*Ayrılmazsan ağır eldən.*

*Zəng eylədi körpə bacım,*
*Bax azaldı ağrım-acım,*
*Mənə dedi bu turacım.*
*Gəl özünü vermə əldən,*
*Ayrılmazsan ağır eldən,*
*Sən hər zaman bizimləsən.*

Şairə sevgi hislərin belə qələmə alır:

*Qapqara gecələrdə,*
*Çəkilir mənim yuxum.*

*Yastığı qucaqlayıb,*
*Alıram sənin qoxun.*

*Gözümü yuman kimi,*
*Diksinib oyanıram.*
*Yay kimi gərilirəm,*
*Dartınıb dayanıram.*

*Qorxuram uşaq kimi,*
*Örtürəm pəncərəni.*
*Yağıram leysan kimi,*
*Aşıram bənd- bərəni.*

*Ağlayıb, sızlayıram,*
*Bayıra çıxmır ünüm.*
*Sənsiz qaldığım gündən,*
*Qaralıb aydın günüm.*

*Yolunu gözləməkdən,*
*Üşüyür mənim gözüm.*
*Qayıdıb gəlmirsən sən,*
*Gələcəm sənə özüm.*

*Sənin yolun dönməzdir,*
*Bilirəm yarım mənim.*
*Səninlə görüşməyə,*
*Göndərsin Tanrım məni!*

Şairəin şeirlərində  ana-ata həsrətidə duyulur. O, ana həsrətiylə  belə yazır:

*Mənim bu hayqırıb, harayladığım,*
*Altmışı ötsəmdə həp aradığım,*

*Onun yoxluğuna inanmadığım,*
*Mənim axtardığım, şirin bir nemət.*
*Dünyanın ən şirin bir varlığıdır,*
*Anasız qızların axtardığıdır.*

*Onu xatırlayıb uşaqlaşdığım,*
*Xəyalən ağ saçın tumarladığım,*
*Ata ocağından hey axtardığım,*
*Mənim axtardığım əziz bir qismət.*
*Dünyanın ən şirin bir varlığıdır,*
*Anasız qızların axtardığıdır.*

*Məni anlayan da, duyanlarda var,*
*Gecəni yatmayıb ağlayan da var,*
*Səbirli ol deyib danlayan da var,*
*Mənim axtardığım bal kimi şərbət.*
*Dünyanın ən şirin bir varlığıdır,*
*Anasız qızların axtardığıdır.*

*Mənim çəkdiyimi yaxşı bilənlər,*
*Axıdıb göz yaşın gizli silənlər,*
*Ayağa daş dəysə «Ana» deyənlər,*
*Mənim axtardığım gözəl fəzilət.*
*Dünyanın ən şirin bir varlığıdır,*
*Anasız qızların axtardığıdır.*

*Dünyada ölüncə gəzirik onu,*
*Bu arzu, diləyin yoxdur bir sonu,*
*Allahım əvəzsiz yaradıb onu.*
*Mənim axtardığım anamdır əlbət,*
*Allah yaratdığı bir gözəl afət.*
*Dünyanın ən şirin bir varlığıdır,*
*Bütun övladların axtardığıdır.*

Şairə şeirlərində övlad sevgisinidə məharətlə qələmə almışdır. O, övladının ad günündə yazır:

*Səni təbrik etmək üçün,*
*Burdan ora qaçım,* gəlim.
*Könlün məni istəyirsə,*
*Quştək qanad açım gəlim.*

*Axı sənsiz dözəmmirəm,*
*Mən yanına uçum gəlim.*
*Balam səni qucmaq üçün,*
*Qollarımı açım gəlim.*

*Səmalardan baş tacıma,*
*Göydən ulduz dərim gəlim.*
*Pəncərədən otağına,*
*Güntək şəfəq saçım gəlim.*

*Həsrətini mən çəkməkdən,*
*Ağarıbdı saçım mənim.*
*Bu ağaran saçlarıma,*
*Alıb həna çəkim gəlim.*

*Sənə indi çatmaq üçün,*
*Abu - kövsər içim g*əlim.
*Səni öpüb qucmaq üçün,*
*Mən Bakıya uçum gəlim.*

Qumru xanımın bu kitabı mənə elə gəlir ki, çapa gedə bilər. Şairəyə bu yolda uğurlar və növbəti kitablarının çapa hazırlanmasını arzılayıram.

*Vidadi Turan Ağdamlı: Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü. "Həkəri" qəzetinin şöbə müdürü, Radio FM-n xüsusi müxbiri.*



# ONA SƏN SEVDİRDİN ANA VƏTƏNİ

## ULU ÖNDƏRİM

***(Ulu Öndərin 99-cu il dönümündə)***

Şanlı Vətənimin igid övladı,
Dünyaya tanıtdın Azərbaycanı.
Neftini dünyaya çatdırmaq üçün,
Yazıb imzaladın Bakı Ceyhanı.

Görərək nə qədər xeyirli işlər,
Tarixə yazdırdın Heydər adını.
Rahat yat məzarda sən Ulu Öndər,
Xoş günlər gözləyir Azərbaycanı.

“Fəxr etdim”  dedin “Azərbaycanlıyam”,
Xalqım da öyünür sənin adınla.
Oğlun addımladı sənin yolunla,
Xalqımız fəxr edir bu gün İlhamla.

Elə böyütmüsən sən öz oğlunu,
Haqsızda qoymadı o öz haqqını.
Siyasət yürütdü elə döyüşdü,
Yağıdan qaytardı torpaqlarını.

Qalib ordumuz var, əsgərimiz var,
Vətənçün can verən Şəhidimiz var.
Zəfər qazanmışıq, qalib olmuşuq,
İlhamtək yenilməz sərkərdəmiz var.

Xalq ilə birləşib bir yumruq oldu,
Xalqın ürəyinə sevgiylə doldu.
Rahat yat məzarda Ulu Öndərim,
İlham gedən bu yol Heydər yoludu,
İlham gedən bu yol haqqın yoludu.

## MEHRİBANIM

Sən hər kəsə oldun ana,
Söylədilər dərdlərini.
Qulaq asdın yana-yana,
Həll etdin dərd-sərlərini.

Dara düşən insanların,
Tez yetişdin harayına.
İşsizlərin, xəstələrin,
Yetişirsən imdadına.

Prezdentin silahdaşı,
Ömür, həm də iş yoldaşı.
Xalqa arxa-dayaq oldun,
Dinlədin hər vətəndaşı.

Ey xalqımın ali qızı,
Asimanın dan ulduzu.
Bunları mən necə danım?
Mehribanım, Mehribanım.

Harda uşaq, körpə görsən,
Əl çəkirsən sən başına.
Gözü yaşlı anaların,
Dözəmmirsən göz yaşına.

Təşəkkürüm vardı sənə,
Mənə də yardım etmisən.
Göndərərək sən həkimə,
Əməliyyat etdirmisən.

Səni doğan ananın mən,
Qarşısında baş əyirəm.

Səndən böyük olsam belə,
Sənə anamsan deyirəm.

Çox sağ olsun Humay həkim,
Gözlərimə işıq verdi.
Təşəkkür eyləmək üçün,
Qumru Qüdrət belə dedi.

Ey xalqımın yanar qızı,
Asimanın dan-ulduzu.
Təşəkkürü qəbul eylə,
Allah səndən olsun razı.

Bunları mən neçə danım?
Mehribanım Mehribanım.
Allah sizi hifz eylısin,
Ey İlhamım, Mehribanım.

***12 12 2021***

## YER AĞLASIN, GÖY AĞLASIN

***(Şəhid Turan Məhərrəmovun əziz xatirəsinə)***

Bu gün gəldi vay xəbərin,
Sənsiz qaldı yarın sənin.
Yer ağlasın, göy ağlasın,
Yasa döndü toyun sənin.

Düşmənlərin zalım oldu,
Anan saçın, başın yoldu,
Yer ağlasın, göy kişnəsin,
Turan balam Şəhid oldu.

Səs yayıldı kənd Qımıra
Bəzək vurmayın çadıra.
Yer ağlasın, göy kişnəsin,
Şəhidimiz gəlir bura.

***18 09 2022***

## ŞƏHİDLƏRƏ QURBAN DEDİK

***(Biz gördükcə mediada, televizorda şəklinizi.
Üzülərək sizlər üçün)***

Neçə dəfə can, can dedik,
Yaza- yaza gah ah çəkdik,
Həm qarğadıq, həmdə söydük.
Gah üz tutub Paşınyana,
Bir əl saxla, dayan dedik.

Aralığı qızışdıran,
Uzaq, yaxın  yad ellərə.
Etdiyiniz əməllərdən,
Bəsdi çəkin, utan dedik.

Uyub özgə sözlərinə,
Qan axıtma düzlərimə.
Pərdəni sil gözlərindən,
Ey Paşinyan oyan dedik.

Gözlərindən pərdəni soy,
Daha bəsdi, sən qandan doy,
Gəl, sülhə gəl imzanı qoy.
Müharibə dayanıb de,
Eyləginən bəyan dedik.

Qoy birlikdə yaşasınlar,
Özgə etniq xalqlar kimi.
Söz deyən yox, dinc kəslərə,
Eyləyirik əyan dedik.

Sizlər üçün çox ağlayıb,
Əzizləyib, xatırlayıb.
Qürur duyub, şax dayanıb,
Siz Vətənə qurban olduz.
Bizdə sizə qurban dedik,
Torpaqlarçün candan keçən,
Şəhidlərə qurban dedik.

***20 09 2022***

## ŞƏHİD XƏBİRİ GƏLDİ

Bu səhər yenə bizə Şəhid xəbəri gəldi,
Anaların naləsi ərşə qalxdı, yüksəldi.
Düşmən sakit durmadı, yenə axdı nahaqq qan,
Yenə neçə igidin itirdi Azərbaycan!

Gözlərimdə yaş donub, giləlValid durubdu,
Belə ağır xəbərdən , boğazım quruyubdur.
Mənfur yağı yenə də əl çəkmir əməlindən,
Gərək ki köklərini biz kəsək təməlindən!

Mənim xalqım poladtək əyilməzdir, mətindir,
Mənfur yağı bilsin ki bizi əymək çətindir.
Mərd oğullar böyüdən bil ki, mərd atalardı,
Hələ milli ordumda “N” qədər igid vardı!

Bizim milli ordumuz, qoymaz yerdə qala qan,

Şəhidlərin qanını alıblar yubanmadan.
Bizim igid ərənlər qorxmaz olub hər zaman,
Belə igidləriylə fəxr edir Azərbaycan!

Rahat yatın ey igid, mərd, ölməz Şəhidlərim,
Sizin üçün anayıq, mənim ölməz ərlərim.
Unutmarıq sizləri , əzizlərik hər zaman,
Siz candan keçdinizki var olsun Azərbaycan!

***13 10 2022***

## AYRILMIŞAM AĞIR ELDƏN

Götür çıxar məni evdən,
Mən gedərəm yoxsa əldən.
Ürəyimdə nisgilim var,
Ayrılmışam ağır eldən.

Qəlbim dolub qüssə ilə,
Gözümdə yaş gilə - gilə,
Toxunmayın sarı telə,
Ayrılmışam ağır eldən.

Orda qalıb qoca atam,
Necə gedib ora çatam?
Fikir qoymur gecə yatam,
Ayrılmışam ağır eldən.

Gündüzləri gəzəmmirəm,
Daranmıram, bəzənmirəm,
Ayrılığa dözəmmirəm,
Ayrılmışam ağır eldən.

Qəribliyim mənə yükdü,
Çəkəmmirəm çox böyükdü,
Fikirlərim yenə hürkdü,
Ayrılmışam ağır eldən.

Qumru, bəsdi ötdün dil-dil,
Dar qəfəsdə oldun bülbül,
Gözlərinin yaşını sil.
Sən özünü salma əldən,
Ayrılmazsan ağır eldən.

Zəng eylədi körpə bacım,
Bax azaldı ağrım-acım,
Mənə dedi bu turacım.
Gəl özünü vermə əldən,
Ayrılmazsan ağır eldən,
Sən hər zaman bizimləsən.

## XUDAYAR

***(Şəhidimizin əziz xatirəsinə)***

Gözəl sifətinlə, gülər gözünlə,
Şirin avazınla, şirin sözünlə.
Yaxanda üç rəngli özəl rəmzinlə.
Yazılıb tarixə döndün Xudayar...
Vətənim söyləyib öldün Xudayar.

Düşmən üstə gedən aslana döndün,
Zirvə fəth eyləyən qartala döndün,
Vətənçün əbədi dastana döndün.
Dumandan özünə bir xeymə qurdun,
Xalqın ürəyində yurd - yuva qurdun.

Azad Vətənimin əziz oğlu sən,
Ölümün üzünə baxıb gülmüsən.
Canını Vətənə qurban demisən...
Keçdi xəyalından öz gözəl yurdun,
Səsinlə düşmənə sən zərbə vürdün.

Dinlədi xalqımız sənin nəğməni,
Analar övladtək sevdilər səni,
Gələcək nəsillər yaşadar səni.
Vətənçün sən Şəhid oldun Xudayar...
Ölmədin, qəhrəman oldun Xudayar.

Adını qoydular bir çox uşağa,
Şöhrətin yayıldı yaxın, uzağa,
Ölsün, sevinməsin o mənfur dığa.
Vətənçün canından keçdin Xudayar,
Huritək zirvəyə uçdun Xudayar.
Ölməzsiz siz əziz Şəhidlərimiz,
Xalqımız sizləri daim yaşadar.

***02 06 2022***

## ONA SƏN SEVDİRDİN ANA VƏTƏNİ

***(Qəhraman Şəhidimiz Leytinant Emin Sadıqovun anası gözəl anamız Gülşad xanım, biz həmişə səninləyik )***

Gözlərin ulduzdan gözəldir ana,
Mərd dayan, kövrəlib ağlama ana,
Layiqli bir övlad verdin Vətənə,
Ellər heyran olub bu əməlinə.

Emintək elə bir övlad böyütdün,
Ürəyi hər zaman xalqla döyündü.
Mərd, igid, ər oğlu, igid Leytinant,
Yerinə yetirdi ana öyüdün!

Ona, sən sevdirdin ana Vətəni,
Dedin, Vətəndən qov yoldan ötəni.
Emində mərd, qorxmaz dostları kimi,
Qanıyla qorudu ana Vətəni.

Döyüşə atıldı pələng şir kimi,
Düşmənlə döyüşdü bir bəbir kimi.
Torpağı uğrunda canından keçdi,
Bayrağa büküldü mərd Şəhid kimi.

Anasın çox sevən tək övlad idi,
Anasıyla birgə o, çox şad idi.
Onda bil, anası tək Gülşad idi,
Bütün analardı anası indi.

Anasına layiq bir övlad oldu,
Ucaboy, mərd, igid leytinant oldu.
İgidtək döyüşüb o, Şəhid oldu,
Bütün el-obanın  qəlbinə doldu.

Ona layla deyir bütün analar,
Mərd, igid Şəhidim, Eminim laylay.
Sənin anan bizə bir əmanətdir,
Cənnətdə rahat yat Eminim laylay.
Qumru anan deyir əzizim laylay,
Eminim laylay, Şəhibim laylay.

***03 10 2022***

## ŞƏHİD BALASININ KİÇİK TOYUNA

***(Şəhid İsrəfilov Anar İsrəfil oğlunun övladına kiçik toy mərasimi keçirilib)***

Unutma ki, hər anında,
Atan olacaq yanında.
Yaşayacaq o səninlə,
Sənin dönməz amalında.

Olacaqsan atan kimi,
İgid, qorxmaz, mətin bir ər.
Sevəcəksən Vətənini,
Olacaqsan vətənpərvər.

Bu gün sənin kiçik toyun,
Çox mübarək deyirik biz.
Atanla  fəxr eylə, öyün,
Fəxr edirik hər birimiz.

Şəhidimiz gözün aydın,
Böyüyübdür bax övladın.
Qəhramantək tarixlərə,
Yazılıbdır sənin adın.

Ölməmisən ölümünlə,
Yağılardan öc almısan.
Şəhid olub millətinin,
Ürəyində yer salmısan.

Biz xoşbəxtlik diləyirik,
Sənin igid övladına.
Diləyirik atasının,
Layiq olsun o, adına!

***18 06 2022***

## ŞUŞA

Bu gün daşnaqların ayağı altda,
Babalar məzarı sızlayır bilin.
Siz ey xalqımızın mərd əsgərləri,
Düşmənin izini bu yurddan silin.

Orda Xan qızının gözü yoldadı,
Gözləyir yolunu mərd əsgərlərin.
Bülbülün yaralı daş heykəlinin,
Alın qisasını igid ərlərim.

Qoymayın sevinsin o qan içənlər,
Qaytarın Vətənə Daşaltı çayın.
Qaytarın Şuşanı yağı düşməndən,
Xocalı şəhərin onlardan alın.

Laçın, Kəlbəcəri alın yağıdan,
Sevinin, qələbə büsatı qurun.
Qarabağdan qovun daşnaq, dığanı,
Üç rəngli bayrağı Xankəndə vurun.

## ŞƏHİDLƏRİM

Qəlbinizin istəyilə,
Qidalandız, Şəhidlərim.
Min arzuyla, dilək ilə,
Qanadlandız, Şəhidlərim.

Özünüzçün siz su sandız,
Qarabağı hava sandız.
Torpaqları qaytarmaqçün,
Vuruşdunuz, Şəhidlərim.

Dediz yerdə qoymarıq qan,
Əziz xalqım buna inan.
Torpaqları qaytarmaqçün,
Lazım gəlsə, verərik can.

Nə lazımsa etdiniz siz,
Düşmən üstə getdiniz siz.
Əziz candan keçdiniz siz,
Bütov oldu Azərbaycan.

Qartal kimi elə süzdüz,
Düşmənlərin başın üzdüz.
Leş üstünə leşi düzdüz,
Qisas aldız, igidlərim.

Azərbaycan xalqı üçün,
Ölməz olduz, Şəhidlərim.
Hər nə gəlsə əlimizdən,
Qələm, dəftər, təbimizlə.

Yazacağıq bizdə sizdən,
Rahat yatın, Şəhidlərim.
Haqqınızı sizdə bizə,
Halal edin, Şəhidlərim.

## CAN ŞƏHİDİM, SƏBUHİ CAN

***(Şəhid Səbuhi Əhmədovun əziz xatirəsinə)***

Şəkillərdən elə baxdın,
Ürəyimi köztək yaxdın.
Yetim Şəhid, gördüm səni,
Gözlərimdən sel, su axdı.

Süzgün, qara gözlərinlə,
Danışırsan bizlərinən.
Çatdırırsan öz xalqına,
Demədiyin sözləri sən.

Baxışınla Səbuhi can,
Dedin yoxdu mənim anam.
Mənsiz qaldı, tək, qardaşım,
Axı həm də yoxdu atam.

Dedin yoxdur ağlayanım,
Mənimçün yas saxlayanım.
Yoxdu həm də bacım mənim,
Köynəyimi qoxlayanım.

Şəhidim, sən buna inan,
Sən Şəhid olduğun andan.
Öz xalqının anaları,
Hamı olub sənin anan.

Sənə layla çalanlar var,
Səni doğma sananlar var.
Sən rahat yat cənnətində,
Can, qadanı alanlar var.

Bil, Şəhidim var nə qədər,
Sənə balam, can deyənlər.
Sən Vətənin övladısan,
Unudulmaz bil, Şəhidlər.
Azərbaycan var olduqca,
Yaşayacaqdır Şəhidlər!!!

***21 09 2022***

## ŞƏHİD OLSAM MƏĞRUR DAYAN

***( Əziz Şəhidimiz Baş leytinat Hüseyinli Rəşad Ramiz oğlunun dilindən)***

Yenə qalxıbdı qarqaşa,
Olacaqlar gələr başa.
Azad olub Ağdam, Şüşa,
Məğrur dayan əziz anam!

Almaq üçün biz Laçını,
Kəsməliyik yad qıçını,
Ağlayıb yolma saçını,
Məğrur dayan əziz anam!

Qürurlu ol səndə atam!
Heç əyilmə, məğrur dayan!
Elə bil ki yanındayam,
Məğrur dayan əziz atam!

Qisməti yazıb Allahım,
Ağlayıb etmə günahı.
Allahım olsun pənahın,
Məğrur dayan əziz anam!

Yağıların , hərislərin,
Verməliyik biz dərslərin.
Kəsməliyik pis qıçların,
Məğrur dayan əziz anam!

Şəhid olsam məndə əgər,
Sənə çatsa ağır xəbər,
Özünü saxla birtəhər,
Məğrur dayan əziz anam!

Oxuyanda xalq himnimi,
Xatırlarsan səndə məni…
Bil döyüşdüm kişi kimi..
Məğrur dayan əziz anam!
Xalq unutmaz Şəhidini..
Məğrur dayan əziz atam!

***16 09 2022***

## ANA HARAYI

***(Naxçıvan Şəhidi baş leytinat Həmid Qasımovun əziz xatorəsinə)***

Can, Şəhidim, əziz balam,
Haray çəkdi sənin anan.
Dedi, səni məhv olasan,
Rəzil , alçaq, ey Paşinyan.

Tökdün yenə nahaqq qanlar,
Aldın neçə cavan canlar.
Qana elə hərissən ki,
Səndən bezib bu insanlar.

Bizə gəlmə sən hərbəni,
Qanla yuma dağ-dərəni.
Sülh ilə gəl saziş bağla,
Gəl uzatma müharbəni.

Əgər sülhə gəlməsən sən,
Əməlindən dönməsən sən.
İrəvanda bizimkidir!
Bunu yəqin bilginən sən!

Mən igidlər anasıyam,
Azərbaycan qalasıyam.
Torpaqları almaq üçün,
Əgər lazım gəlsə bu gün,
Mən də Şəhid olasıyam.

Yerdə qalmaz tökülən qan,
Qalib olmaz nahaqq olan.
Onu bil ki, qələbəni,
Qazanacaq Azərbaycan!!!

***16 09 2022***

## ŞAHBUZUN ÇÖLLƏRİ

Heyran oldum Şahbuzun çöllərinə,
Vuruldum laləli talalarına.
Quşlar oxuyurlar, verib səs-səsə,
Qonaraq ağacın budaqlarına.

Dağların başından süzülüb gəlir,
Naxçıvan çayına qarışır sular.
Dağların ətəyi əlvan lalədir,
Baxıb dilə gəlir burda duyğular.

Siz bizim dağların seyrinə gəlin,
Başına saldığı yaşıl tüllərin.
Dağlar elə bil ki, bəzənmiş gəlin,
Lalələr bənzəyir al yanağına.

Çıxammıram, mən düşmüşəm seyrinə,
Dağ başından hərdən əsən mehlərin.

Vurğunuyam dağ döşundə lalənin,
Lalə üstə səhər düşən şehlərin.

Qumruyam, görmədim gözəllik belə,
Yolumuz düşmüşdü Şahbuz çölünə.
Hər tərəf yamyaşıl, talalar lalə,
Heyran oldum Məmməd Araz elinə.

***18 05 1999***

## ARƏSTƏ

***( igid qerətli şəhidimiz Arəstə
xanımın əziz xatirəsinə )***

Məğrur baxışınla,
Şüx duruşunla,
Düşmənin bağrını,
Sökdün Arəstə.

Şəhid qardaşlartək,
Heç çəkinmədən,
Qanını torpağa,
Tökdün Arəstə.

Üç min Şəhidimin,
“Gözəl bacısı”.
Düşmənlər bu sözdən,
Ürkdü Arəstə.

Azərbaycanımın,
Qorxmaz qızı sən.
Özünü bayrağa,
Bükdün Arəstə.

Azəri xalqının,
Sən ürəyində,
Özünə bir məbəd,
Tikdin Arəstə.

***11 03 2022***

## SƏN QÜRÜR DUY, AY ANA!

***(Əziz Şəhidimiz Alı Həsənlinin dilindən)***

Nə zəhmətlə böyütmüşdün sən məni,
“Toy eyləyib” sevindirərəm səni.
Ölümümlə sıxdım sənin qəlbini.
Gözlərinin yaşını sil, ay ana!
Sən buna döz, niskilim çox, ay ana!

Bir el qızı mənə könül açmadı,
Arzularım qanad açıb uçmadı,
Bir övladım qucağıma qaçmadı.
Bu dünyada nişanəm yox, ay ana,!
Sən buna döz, niskilim çox, ay ana!

Övladıyla öyünəndə analar,
Sığal çəkib bəzənəndə sonalar,
Səni yaxıb yandıranda anılar,
Ürəyindən qalxacaq ah, ay ana!
Sən buna döz, niskilim çox, ay ana!

Evimizə gətirmədim gəlini,
Toy eyləyib qoxlamadım telini,
Mənfur yağı vaxtsız öldürdü məni.

Baş daşıma qərənfil tax, ay ana!
Qürür ilə şəklimə bax, ay ana!

Şəklimə bax, ovunginən, nikbin ol,
Mən Şəhidəm, sən qürür duy, ötkəm ol,
Sən qız köçür, nəvə oynat, şükran ol.
Yaxşı günlər qarşıdadır, ay ana!
Sən şad olsan niskilim yox, ay ana!

***21 -07-2021***

## ARXASIZ QALMIŞAM

***(Buzovna Şəhidi Əliyev Orxan Ədalət oğlunun ailəsinin dilindən)***

Mənim çox sevdiyim bir gülüm vardı,
Axtardım tapmadım güllər içində.
Mənə nəğmə deyən bulbulum vardı,
Susubdur, gözlərim sellər içində.

Mənim gül-gülüzar vardı bir bağım,
O bağda gəzirəm ahlar içimdə.
Söykənə bildiyim vardı bir dağım,
Arxasız qalmışam xoflar içində.

Yoluma nur saçan vardı çırağım,
Sönub, qaranlıqdır indi otağım.
Təkəm, cingildəyir mənim qulağım,
Susmuşam, yanaqlar əllər içində.

Getdiyi səfərdən dönmədi geri,
Ah-naləm bürüdü göyü həm yeri.

Evimdə görünür onun boş yeri,
Şəhiddir, yatıbdı ərlər içində.

Şəhidtək onunda hekayəsi var,
Yanımda bircə cüt can parəsi var.
Mənə əmanətdir, nişanəsi var,
Ruhu şad dolansın nurlar içində.

Mənimtək tək qalan vardı çox ana,
Çoxunun sevgisi döndü dastana.
Orxanda Vətənçün qıydı canına,
Bayrağa bükülən minlər içində.

Onsuz yaşamağım ağırdı mənə,
Ağır daş oturub sanki sinəmə.
Allahım səbir ver nə olar mənə,
Sərgərdan gəzməyim çöllər içində.

***06-05-2022***

## DÖYÜŞ ADIN OLDU ASLAN

***(Buzovnalı Şəhid Əkbərov Əmrah Şahid oğlunun əziz xatirəsinə)***

Vətəninin uğurunda,
Eyləmisən canı qurban.
Torpaqları qaytarmaqçün,
Sən vermisən qanı ehsan.

İgid şirtək sən döyüşdün,
Çağırıldı adın da “Aslan”.

Bayrağına bükülənlər,
Sırasında səndə varsan.

Mərd igidim o, yağıyla,
Sən döyüşdün yorulmadan.
Əsil adın Əmrah idi,
Döyüş adın oldu "Aslan".

Vətən sizi yaşadacaq,
Can Şəhidim, buna inan.
Yaddaşlarda qalacaqsız,
Var olduqca Azərbaycan!!!

*07-07-2022*

## ÖRNƏK OLMALIYAM

Elə duyğuluyam mən, elə kövrək,
Çox arzum həyata keçməyib hələ.
Sözlərlə doludur sinəmdə ürək,
Şe(i)rlərim nəğmətək düşməyib dilə.

Aylar, illər hədər keçdi ömrümdən,
Gözümdən süzülür yaş gilə-gilə.
Şimşəyə dönürəm, çaxıram hərdən,
Hərdəndə dönürəm mülayim yelə.

Yazsamda çox qazi, çox Şəhidlərdən,
Yenə də borcluyam Vətənə, elə,
Canlarından keçən mərd igidlərdən,
Yazaraq çatdırram gənc nəsillərə.

Ruhuna baş əyib Şəhid olanın,
Arxa durmalıyam mən qazilərə.

Əlindən tutaraq darda qalanın,
Örnək olmalıyam bir çox gənclərə.

Mənim adım Qumru, ləqəbim Qüdrət,
Ata-anam  qoyan yolla gedirəm.
Mənə öyüd verən ata-anamın,
Ruhu qarşısında səcdə edirəm.

***26 05 2022***

## AL QIRMIZI QƏRƏNFİLSƏN

Bir zamanlar əziziydin,
Sevənlərin, gözəl çiçək.
Bəzəyərdin qucağını,
Gözəllərin, sən sevincək,

Uzun, sivri, boy-buxunlu,
İncə, zərif yarpaqların,
Hər bir evdə, xoş günlərdə,
Sovqatıydı qonaqların.

Bir zamanlar bəy-gəlinin,
Toy stolun bəzəyərdin.
Səkkizi mart bayramında,
Əziziydin gözəllərin.

İndi isə bəzəyirsən,
Məzarını Şəhidlərin.
Düzülürsən məzar üstə,
Boynu qırıq, al güllərim.

O zamanlar özəliydin,
Şəvə telli  sonaların.

İndi isə əzizisən,
Gozü yaşlı anaların.

Anaları ağlar görüb,
Sanki sən də üzülürsən.
Rəngi solmuş, boynu qırıq,
Məzar üstə düzülürsən.

Can qərənfil, ey əziz gül,
20 yanvar qırğınında,
Sən hər şeyə şahid oldun.
Sən bizimlə bir döyüşüb,
Sən bizimlə Şəhid oldun.

Bu illərdə biz səninlə,
Bir üzüldük, bir ağladıq.
Bir vuruşub, bir döyüşüb,
Düşmənlərdən qisas aldıq.

Rəhbərlə xalq birləşərək,
Ağır dəmir yumruq olduq.
Yağılara dərs verərək,
Qırx dörd gündə zəfər çaldıq.

Bax sevinir xarıbülbül,
Məğrur dayan, məğrur gülüm.
Biz qalibik, zəfər sənin,
Zəfər xalqın, zəfər mənim.

Qarabağım azad olub,
Gözü aydın ellərimin.
Qisasları alınıbdı,
Rahat yatsın Şəhidlərim.

Sən hər zaman bizim üçün,
Elə həmin əziz gülsən.
Düşmən üstə zəfər çalan,
Al qırmızı qərənfilsən.

Şəhidləri əziz bilən, qalib
xalqın bir rəmzisən.

***19-01-2022***






# SEVƏRƏK YAŞASINLAR

## GƏLƏCƏM SƏNƏ ÖZÜM

***(Səmayə xanımın dilindən)***

Qapqara gecələrdə,
Çəkilir mənim yuxum.
Yastığı qucaqlayıb,
Alıram sənin qoxun.

Gözümü yuman kimi,
Diksinib oyanıram.
Yay kimi gərilirəm,
Dartınıb dayanıram.

Qorxuram uşaq kimi,
Örtürəm pəncərəni.
Yağıram leysan kimi,
Aşıram bənd- bərəni.

Ağlayıb, sızlayıram,
Bayıra çıxmır ünüm.
Sənsiz qaldığım gündən,
Qaralıb aydın günüm.

Yolunu gözləməkdən,
Üşüyür mənim gözüm.
Qayıdıb gəlmirsən sən,
Gələcəm sənə özüm.

Sənin yolun dönməzdir,
Bilirəm yarım mənim.
Səninlə görüşməyə,
Göndərsin Tanrım məni!

## ƏLİNİ VER ƏLİMƏ

Əlini ver əlimə,
Başını qoy sinəmə,
Pıçıldayan qəlbimə,
Sən qulaq as, ey gözəl.

Dinlə ürək sözümü,
Tapmaq üçün çözümü,
Götür sınıq sazımı,
Köksünə bas, ey gözəl.

Birgə vursun qəlbimiz,
Xoşbəxt olaq ikimiz,
Demə ölüb eşqimiz,
Sən tutma yas, ey gözəl.

Mən aşiqəm haçandan,
Eşq umuram canandan,
Bir gün vüsal, hicrandan,
Alar qisas, ey gözəl.

Söyləyərsən Qüdrətə,
İnanıram hikmətə,
Bu ülvü məhəbbətə,
Bir nəğmə yaz, ey gözəl.

## SƏN GETDİN

Sən getdin, çəməndə güllərim soldu,
Bağçamda yasəmən saçların yoldu.
Qızılgül ləçəyin tökdü hicrindən,
Həsrətdən lalənin yanağı soldu.

Sən getdin, getməyin qəlbimə dəydi,
O gündən bənövşə boynunu əydi.
Qargülü boylandı qarın altından,
Üzümə baxaraq gözlərin döydü.

Sən getdin, elə bil ürəyim durdu,
Zanbaqlar əyilib boynunu burdu.
Qərənfil qəm ilə baxdı üzümə,
Nərgizlər utanıb mənə göz vurdu.

Sən getdin, süsənin ətri azaldı,
Qüssədən reyhanın rəngi bozardı.
Bağçamda badi-səba büküldü vaxtsız,
Açmamış qönçəsin torpağa saldı.

Sən getdin, qurudu çiçəklər, güllər,
Ah-nalə qopardı şeyda bülbüllər.
Qumru quşu kəsdi öz nəğməsini,
Susaraq baxışdı şən ana dillər.

Sən getdin, qəlbimə odlar qalandı,
Bağçamın gülləri soldu, talandı.
O vaxtdan susubdu şeyda bülbüllər,
Qəm ilə oxuyan, ötən nalandı.

Sən getdin, calandı ahlarım aha,
Ümidim qalmadı gözəl sabaha.
Qumruyam, qələmim, kağızım ağlar,
Susubdur, coşmayır bilirsən daha,
Təvəkkül edirəm uca Allaha !

## İLAHİ SEVGİ

Haqq yolumu mən tapandan,
Kədər məndən qaçaq olub.
Allahıma sığınmışam,
Ürəyimə sevgi dolub.

Şən bülbültək oxuyuram,
Yorulmadan şən nəğmələr.
Sevdiyimi əzizləyib,
Mədh edirəm axşam, səhər.

Mən oxuyan bir bülbüləm,
Məndən çəkin qüssə, kədər.
Sən özünü yorma zalım,
Əziyyətin gedər hədər.

Sevgi verib, eşq veribdi,
İrəyimə ulu  Tanrım.
Qurban olum Allahıma,
Odur mənim dövlət-varım.

Bu eşq elə bir sevgidir,
Ondan uzaq durmaq olmaz.
Bu Allahın sevgisidir,
Ondan iraq olmaq olmaz!

Təşəkkürüm vardı ona,
Ürəyimə sevgi verib.
Minnətdaram Allahıma,
Mənə ilham, təbi verib.

***02 02 2022***

## ADƏTDİR BİL

Bir gözəl görmüsən, özü şirindil,
Üzünü görəndən salmışan meyil,
Bu gözəl hər kəsin tayı deyil, bil,
Qaməti sərvidir, özu incəbel.

Onu görcək yenə ilham oyandı,
Sənəm kimi eşqin oduna yandım.
Sevən canım bu gözələ qurbandı,
Özü sığallıdı, işi fitnə - fel.

Səni yandırıbdı naz ilə zalım,
Yoruldun nazından, qalmadı halın,
Bu ürkək ceyranın, dəli maralın,
Nazu-qəmzəsidə qurtaran deyil.

Ləbləri nabatdı, baldanda şirin,
Fərhadın qəstinə durub bu Şirin,
Naz ilə öldürər sevən aşiqin,
Gözündən yaş tökər abu leysan-sel.

Yel əsib, dağıdıb şəvə telini,
Sevgiylə qucaqla onun belini,
Qıyma çox ağlasın gözəl gəlini,
Sığarla telini, göz yaşını sil.

Gərəkdir dözəsən onun nazına,
Hərdən busə qondur lalə üzünə,
Şəkər qat bal kimi söhbət-sözünə,
Nə qədər naz etsə olginən mail.

Gözəldə adətdir ay kimi çıxar,
Qara gözün süzər, ahutək baxar,
Naz ilə aşiqin yandırar, yaxar,
Oğlum gözəllərdə bu adətdir, bil!

*24 04 2001*

## DASTANA DÖNÜBDÜ MƏHƏBBƏTİMİZ

Mən səni sevmişdim ürəkdən, qəlbən,
Özümə bilmişdim mən səni həmdəm.
İndi aramıza düşüb ayrılıq,
Yanıb alışıram hicran əlindən.

Ömrün bahar çağı qoşa gəzətdik,
Dosta aşinaya möhüb düzərdik.
Ellər heyran idi bu sevgimizə,
Bütün toy düyündə qoşa süzərdik.

Birgə döyünərdi sevən qəlbimiz,
Dillərdə gəzərdi məhəbbətimiz.
Biri - birimizə qalmışıq həsrət,
Dastana dönübdü məhəbbətimiz.

Bəlkə sən də məni arzulayırsan,
Sən də mənim kimi gizli yanırsan.
Hərdən yuxularda görürsən məni,
Bunu yuxu deyil aşkar sanırsan.

Qoruya bilmədik saf məhəbbəti,
Araya buraxdıq kini-nifrəti.
Pak, təmiz sevginin qədrin bilmədik,
İndi danlayırıq  hicran, həsrəti.

Artıq nə qədər də olsaq peşiman,
Ayaqlar altında ölüb əhd- peyman.
Sən mənim olsan da hər an gərəyim,
Geriyə dönməzki, keçibdir zaman.

Birgə döyünərdi sevən qəlbimiz,
Dillərdə gəzərdi bizim sevgimiz.
İndi qovursada bizləri həsrət,
Qovuşa bilmərik artıq, daha biz,
Dastana dönübdür məhəbbətimiz.

***19 09 2021***

## ÜMÜDLƏRİM PUÇ OLDU

Bir bahar, səhər çağı,
Gözlərin elə baxdı.
Günəşin duran çağı,
Gözünün nuru axdı.

Elə həmin andanda,
Ümüdlərim puç oldu.
Sən köç etdin dünyadan,
Mənim həyatım soldu.

Sən məni tərk edədin,
Sənsiz yaşasamda mən.
Hamı edir təsəlli,
Gözümdə qurumur nəm.

Gecələri sübhəçən,
Yuxum qaçır gözümdən.

Səhərlərsə qaçıram,
Mən özüm öz-özümdən.

Çağırıram mən səni,
Səs ver mənim hayıma.
Niyə sənsiz yaşamaq,
Düşdü mənim payıma?

İstəyirəm tez gəlim,
Çatım sənin  yanına.
Yenə həyan olasan,
Səni sevən yarına.

## EŞQDƏN YAZARAM

***("Həyat yoldaşımın ad  günündə yazmışam")***

Geyinib, bəzənib bağda gəzərdim,
Güldən çələng hörüb, telə düzərdim,
Sanki yeriməzdim, quştək süzərdim.
Ürəyim uçardı məhəbbətindən,
Yazardım sevgidən, yazardım eşqdən.

Gözlərin eşq ilə mənə baxanda,
Sözlərin od olub  məni yaxanda,
Məndə ürkək- ürkək sənə baxardım.
Mənə məhəbbətlə baxan o gözdən,
Yazardım sevgidən, yazardım eşqdən.

Sevgi bağçasında açan çiçəkdim,
Çiçəkdən incəydim, zərif ləçəkdim,
Ahu balasıtək qorxaq, ürkəkdim.

Gülü dərən zaman, titrəyən əldən,
Yazardım sevgidən, yazardım eşqdən.

Artıq illər ötdü, aylar ötüşdü,
Qara saçlarıma ağ qrov düşdü,
Budur, ötən günlər yadıma düşdü.
Hərdən inciyəndə küssəmdə səndən,
Yazardım sevgidən, yazardım eşqdən.

İndi gözlərini alsada duman,
Yenə təkcə sənsən bil, məni duyan,
Yetmiş iki yaşlı ey ahıl insan.
Allahdan razıyam, həmdəki səndən,
Yenədə yazıram sevgidən, eşqdən.

Ölüncə yazacam sevgidən Vallah,
Sevib, sevilək ki, deyildir günah,
Bu sevgini bizə veribdi Allah.
Təbrik eyləyərək səni ürəkdən,
Yazaram bitməyən pak sevgimizdən.

## ÇOX GÖZLƏDİM YARIM SƏNİ

Sevgi bağçasının açılan gülü,
Gəl nalan eyləmə şeydabülbülü.
Hicrindən gəzirəm hər gecə- gündüz,
Saçlarım pərişan, gözlərim sulu.

Aşiqəm, eşqinlə yanıram böylə,
Xəstəyəm, təbib ol, gəl əlac eylə.
Bilirəm əlacım gəlişindədir,
Nə olar, insaf et, gəlirəm söylə.

Gəl gözlətmə, çox incitmə sən məni,
Gözü yolda qoymaz sevən sevəni.
Əməl etmə sən əğyarın sözünə,
Gəl, dağlama həsrətinlə sinəmi.

Çox özlədim yarım səni, bilginən,
Gəl mənimlə yenə danış, gülgünən.
İnan səndən ümüdümü üzərsəm,
Mən ölərəm, bunu yəqin bilginən .

Gəl sevinim, viran etmə bağımı,
Gəl nurlandır qaranlıq otağımı.
Gəlişinlə cana gəlsin sevgimiz,
Əzizləyim, mən əziz qonağımı.

***2008***

## MƏHƏBBƏTİN QATİLİ

Məni saldın eşq oduna,
Alışıb yandım oduna.
Demə sevdan yalan imiş,
Allah yetsin  imdadıma.

Məni eşqə salıb getdin,
Ürəyimi al - qan etdin.
Uyub əğyarın sözünə,
Gül bağımı talan etdin.

Sən, mizrabı virub telə,
Niyə axı etdin belə?

Məni atıb, çəkib getdin,
Gözümdə yaş döndü selə.

Sevməyirdin niyə gəldin?
Mənim ilə deyib güldün.
İndi əğyarla gəzirsən,
Mənim üçün artıq öldün.

Ələ alıb mən qələmi,
Sənə yazdım bu sitəmi.
Məhəbbətin qatilisən,
Bağışlamaz Allah səni.
Bağışlamaz Qumru səni!

***03 05 2020***

## SEVƏRƏK YAŞASINLAR

Eləki iki gənc göz - gözə dəyər,
İncə qəlbdə gözəl sevgi cücərər.
Məhəbbətin odu düşən qəlblərdə,
Sevən ürək riqqət ilə döyünər.

Məhəbbətlə sevib, sevgi çağlasın,
İki gənci sevgi bağı bağlasın.
Vüsal günü qovuşanda sevənlər,
Bir - biriylə əhdi- peyman bağlasın.

Söz versin ki, billəm sevgi qədrini,
Sevdiyimdən allam bahar ətrini.
Çalışsın ki, sevdiyini qırmasın,
Əziz tutsun hər bir zaman xətrini.

Bir ömürü sevərək yaşasınlar,
Sevincləri, qəmləri paylaşsınlar.
Allah verən körpələri böyüdüb,
Həyat yükün birlikdə daşısınlar.

Allahın lütfüylə ömür sürənlər,
Xalqa layiq övladlar böyüdərlər.
Belə ailəni görən hər bir kəs,
Onlara min kərə əhsən deyərlər .

Sən də Qumru elə yaz ki, xoş olsun,
Mərd igidə, vəfalı qız tuş olsun.
Allah versin onların ruzusunu,
Şad yesinlər, bizdə deyək, nuş olsun!

***13 09 2021***

## İNAN YARIM

Yalan sözə uyan yarım,
Məni çapqın sanan yarım,
Qısqanclıqdan yanan yarım,
Şıltaqlığım olsa belə,
Cığırımdan çıxmamışam.
Səndən başqa bir gözələ,
Özgə gözlə baxmamışam.
İstəyirsən sən inanma,
İstəyirsən inan yarım.

Uydun əğyarın sözünə,
Baxmadın birdə üzümə.
Qurbanam ala ğözünə,

Arxayınam mən özümə.
Coşan bulaq olsam belə,
Axar su tək axmanışam.
Səndən özgə bir gözələ,
Özgə ğözlə baxmamışam.
İstəyirsən sən inanma,
İstəyirsən inan yarım .

Bağışla, gəl ki, gəlmişəm,
Bəlkə qəlbinə dəymişəm.
Sevgi dolu ürəyimi,
Sevərək sənə vermişəm.
Yağan bulud olsam belə,
Şimşək olub çaxmamışam.
Səndən başqa bir gözələ,
Özgə gözlə baxmamışam.
İstəyirsən sən inanma,
İstəyirsən inan yarım .

***26 09 2020***

## GƏLMƏYƏCƏYƏM

***(Tanış bir 6 aylıq gəlinin dilindən)***

Birdə uymayacam yalanlarına,
Cavab verməyəcəm suallarına,
Gözünü dikərək sən yollarıma,
Gözləmə sən məni, gəlməyəcəyəm .

Sən mənim qəlbimi incidib getdin,
Məni özgəsiylə sən əvəz etdin,
Ömrümdən çıx artıq, mənimçün bitdin,
Sənin həsrətinlə ölməyəcəyəm.

Nə qədər dil töksən dönmərəm geri,
Qaytara bilməzsən ötən günləri,
Artıq sağalıbdır yaramın yeri,
Get, sənə bir daha dönməyəcəyəm.

Başqa birisini sevəcəyəm də,
Ürəkdən sevinib güləcəyəm də,
Gəlin paltarını geyəcəyəm də,
Çiraqtək yanacam, sönməyəcəyəm,
Gözləmə sən məni, gəlməyəcəyəm!

***05 05 2022***

## BELƏ KEÇDİ MƏNİM ÖMRÜM

***(Gənc bir oğlanın dilindən)***

Bir ceyrana düşdü meylim,
Dedim sevdim səni gülüm.
Göz süzdürüb, xətit güldü,
O nazlandı, mən dil tökdüm....
Belə keçdi ayım-ilim.

Sevdim qönçə bir tər gülü,
Saçı sarı bir sünbülü,
Göz süzdürdü, oldum dəli.
O nazlandı, mən tər tökdüm...
Belə keçdi ayım-ilim.

Göz süzdürüb, baxıb getdi,
Günlər, aylar axıb getdi,
Özgəsiylə çıxıb getdi.

Gözlərimdən sel -su tökdüm...
Belə keçdi ömrüm-günüm.

Bel əyildi, kaman oldu,
Mənsə soldum, xəzan oldum,
Arxasınca baxan oldum.
Bulud olub leysan tökdüm...
Belə keçdi mənim ömrüm.

Heç bilmədim nə eyləyim,
Nə danışım, nə söyləyim?
Kimdən küsüm, gileylənim?
Taleyəmi nifrin töküm...
Belə keçdi mənim ömrüm.

Üzdüm ondan əllərimi,
Ağ daradım tellərimi,
Sayıram son günlərimi.
Belə imiş haqdan hökm,
Artıq bitir mənim ömrüm....
Belə keçdi mənim ömrüm.

***12 09 2021***

## MƏNİ AĞLAR QOYUB GETDİN

***(Qaynım arvadı Səmayənin dilindən)***

Dumanlanıb ala gözlər,
Lal olubdur ötən dillər,
Həyatımdə soldu güllər.
Yarım məni qoyub getdin….
Məni boynu bükük etdin….

Mənə balımsan deyərdin,
Uşaq kimi əzizlərdin,
Məndən küsüb niyə getdin?
Yarm məni qoyub getdin...
Məni boynu bükük etdin....

Söyləyərdin sən həmişə,
Sən mənimçün tər bənövşə,
Mən nə deyim bu gərdişə?
Yarım məni qoyub getdin....
Məni boynu bükük etdin....

Sən mənə heç qıymaz idin,
Söhbətimdən doymaz idin,
Məni ağlar qoymaz idin.
Yarım məni qoyub getdin...
Məni boynu bükük etdin....

Elə getdin gələmmirsən,
Göz yaşımı siləmmirsən,
Nə çəkirəm biləmmirsən.
Məni yarım qoyub getdin...
Məni boynu bükük etdin....

Gedişindən mən göynədim,
Bilməm yerdə ya göydəyim,
Ağlayaram, inildərəm.
Məni yarım qoyub getdin...
Sənsizliyə məhkum etdin.....

## BÜLBÜL KİMİYƏM

***(Əmim qızı Şövkət xanımın dilindən)***

Sən yoxsan dünyada, onu bil ki mən,
Gülüstanı talan bülbül kimiyəm.
Sənsiz yaşasamda, susuz bir zəmi,
Zamansız saralan sünbül kimiyəm.

Kəsövtək tütüyən, yanan bir ürək,
Aşiqin tapmayan yaralı tülək,
Hurisin itirən sevən bir mələk,
Əlacsız inləyən bülbül kimiyəm.

Boğaza yığılan bezikmiş bir can,
Düzümü qırılmış tək qalan mərcan,
Sürüsün itirmiş bir ahu seyran,
Süpürgə dalında “Şəngül” kimiyəm.

Gecələr gizlicə yanıb alışan,
Göz yaşı sel olub çaya qarışan,
Gördüyü röyanı suya danışan,
Boynu bükük qalan “Tərgül” kimiyəm.

Qəlbi çiliklənmiş bir şüşə kimi,
Eşqi yalan olan Dilguşə kimi,
Boynu əyri qalan bınövşə kimi,
Çiçəyi tökulən tək gül kimiyəm.

Sən getdin dünyadan, tək qoydun məni,
O vaxtdan qurumur gözümün nəmi,
Dəryada dolanan, yol azmış gəmi,
İçi boş gəmidən yüngül kimiyəm.

Baharım, yayımda qarlı qış kimi,
Xarabada qalan bir bəyquş kimi,
Qanadı qırılan körpə quş kimi,.
Sənsiz bu dünyada dəngül kimiyəm,
Gülüzarı solan bülbül kimiyəm.

## SUSUB QALMIŞAM

İlahi göndərən şirin payımsan,
Vüsala səsləyən sevgi hayımsan,
Ülvi məhəbbətim, haqq harayımsan.
Sevsəm də, sevgimi tora salmışam ...
Mən dinə bilmirəm, susub qalmışam.

Heyran eyləyibdi gözlərin məni,
Dilsizə çevirib sözlərin məni,
Susmuşam, susmağım incidib səni.
Qarşında dayanıb yaman dolmuşam...
Mən dinə bilmirəm, susub qalmışam.

Sən gündüz günəşsən, gecələr aysan,
Camalın əsmərdi, özün humaysan,
Cənnət pərisisən, huriyə taysan.
Belə gözəlliyə uyub, dalmışam...
Mən dinə bilmirəm, susub qalmışam,

O süzgün gözlərə, qələm qaşlara,
O qıvrım tellərə, qulac saçlara,
Qönçə dodaqlara, inci dişlərə.
Şirin gülüşlərə aşiq olmuşam…
Mən dinə bilmirəm, susub qalmişam.

Baxıram qızarır yanağın sənin,
Gülürsən, səyirir dodağın sənin,
Bir gecə kaş olam qonağın sənin.
Xəyalən əlini ələ almışam…
Mən dinə bilmirəm, susub qalmışam.

Qəlbimi odlayıb odlu məlalın,
Məni məftun edib o xoş cəmalın,
Gözündən oxunan sorğu- sualın.
Cavabın tapmıram bəlkə lalmışam...
Mən dinə bilmirəm, susub qalmışam.




# HARA QAÇDIN GƏNCLİYİM?

# YETMİŞİN MÜBARƏK

***( Kitabımın redaktoru şair Vidadi Turan Ağdamlının 70 illik yubleyinə)***



Hörmətli qardaşım Vidadi müəllim,
Arzu eyləyirəm ürəkdən sizə.
Doqquzun yanına sıfır qoyasız,
Körpə balalara həyan olasız.

Təranə xanımın dərdə əlacı,
Turanın, Tunarın başının tacı.
Gözəl ailənlə şad, xürrəm yaşa,
Allahım verməsin bir daha acı.

Mənim təbrikimi sən qəbul eylə,
Qumruda sayılır sənə bir bacı.
Təşəkkür edirəm mən dönə- dönə,
Sağ ol ki dəvəti göndərdin mənə.

Mən də gəlib çatdım gözəl məclisə,
Yetmişin mübarək söyləyim sizə.
Şairlər almışdı səni dövrəyə,
Yetmişin mübarək deyirəm sizə.

***28 09 2022***

## KAŞ YANIMDA OLAYDI

Tezdən qalxıb oyandım,
Axtararaq anamı.
Məsləhət alım ondan,
Danışaraq röyamı.

Gözümdən süzülən yaş,
İsladıbdır balıncı.
Anam yoxdu dünyada,
Dadıma sən yet bacı.

O, müqəddəs varlığım,
Artıq köçüb dünyadan.
Yox olub uşaqlığım,
Ayılmışam röyadan.

Hər kəsin ilk sevdası,
Anasıdır əzizi.
Hər şeyin əvəzi var,
Ananın yox əvəzi.

Kaş qədrini biləydim,
Həyatda olan zaman.
Kaşki, biləydim məni,
O, çox sevib canından.

Başıma dolanıbdı,
Mən xəstə olan zaman.
Kaş yanımda olaydı,
Mənim o, mələk anam.

Məsləhət istəyərdim,
Baş qoyaraq dizinə.
Gecəni yatmamışam,
Yuxu getmir gözümə.

Nə olar əziz bacım,
Özünü yetir mənə.
Anam yoxdu dünyada,
Ehtiyacım var sənə.

***02 02 2000***

## YAŞAYIRSAN MƏNİMLƏ

Əziziyəm ay ana,
Qoxun dolub burnuma.
Mən səni unutmaram,
Yazıram inan buna.

Yatarkən yuxumdasan,
Qoxutək burnumdasan.
Sən görən gözlərimsən,
Gözümün nurundasan.

Beynimdə, yaddaşımda,
Damarda qanımdasan.
Yaşayırsan mənimlə,
Ürəkdə canımdasan.

Fikrimdə, xəyalımda,
Hər gözəl anımdasan.
Sən mənim həyatımda,
Gecəmdə, danımdasan.

İşıqsan gözlərimdə,
Qüvvətsən dizlərimdə.
Sənə şeir yazaram,
Yaşarsan sözlərimdə.

***01 11 2000***

## KİTABA HÖRMƏT ET

Kitaba hörmət et, qoru həmişə,
Kitablar sərvətdir, onu yaxşı bil.
Kitabla dostluğu çevir vərdişə,
Kitabla dünyanı gəzmək olur bil.

Kitab oxumasan ömür hədərdir,
Kitablar hər zaman olsun köməyin.
Kitablar adama bilik verəndir,
Kitabsız bir sənət qazanmaq çətin.

Kitabla dostluğu qırma, qurtarma,
Kitablar haqqında sözümə inan.
Kitablar arzuna çatdırar səni,
Dadına yetişər hər yerdə hər an.

Bu sözü sən heç vaxt yaddan çıxarma,
Kitablar biliklər xəzinəsidir.
Oxu xəzinədən biliklə varlan,
Hər biri bir dahi insan səsidir.

Kitaba hörmət et, onda bilik var,
Kitaba hörmət et, danış onunla.
Kitaba hörmətlə yanaşsan əgər,
Bil ki əvəzini verər sonunda.

***1999***

## AYLİNƏ TƏBRİK

***(Rəfiqəm Qəmzənin nəvəsinə)***

Aylin xanım bir incidir,
Anasının sevincidir.
Müəllimlər  onu sevir,
Əlaçıdır, birincidir.

Səhər tezdən o, oyanır,
Əlin yuyur tez daranır.
Dostlarıyla o, birlikdə,
Himn oxuyur, şax dayanır.

Yanağı gül ləçəyidir,
Nənəsinin çiçəyidir.
Baş tacıdır atasının,
Babasının göyçəyidir.

Ad günüdür on səkkizi,
On yaşını tamam edir.
Belə gözəl göyçək qızı,
Qumru nənə təbrik edir.

Bu ağıllı gözəl qıza,
Hilal qaşlı alagözə.

Can sağlığı diləyərək,
Deyir Aylin sən çat yüzə.

***06 03 2022***

## BABASININ ADIDIR O

***(Nəvəm Elxanın ad günündə)***

Ağzımızın dadıdır o,
Ürəyimin odudur o,
İgid, qoçaq bir oğlandı,
Babasının adıdır o.

Bir oğlandı dəcəl, şıltaq,
İdmançıdır bizim uşaq,
Oturmayır bir dəqiqə,
Hey vurnuxur bizim uşaq.

Gəlib çatıb on bir yaşa,
Hər bir işi bir tamaşa.
Hərdən çıxır məhəlləyə,
Təpik atır kola-daşa.

Karateyə gedir axı,
İndi yaşıl kəmər taxır.
Müəlləmlər sevir onu,
O, çox sevir oxumağı.

Hazırlayır dərslərini,
Tez-tez yuyur əllərini.
Anasıda razı qalır,
Siğarlayır tellərini.

Ağzımızın dadıdır o,
Ürəyimin odüdur o ,
Hamı sevir bu oğlanı,
Babasının adıdır o.

***26 07 2021***

## SIĞINDIM ALLAHIN İRADƏSİNƏ

***(Həyat yoldaşımın dilindən)***

Üç qardaşdan biri yoxdu yanımda,
Deyəm ürəyimdə qalan sözümü.
Gözlərim ümmana dönüb yırğanır,
Duzlu su göynədir mənim  gözümü.

Əsən meh göynədir mənim üzümü,
Sahili yalayan ləpə kimiyəm.
Toplaya bilmirəm özüm-özümü,
Arxası boş qalan təpə kimiyəm.

Deyirsən özünü sən bir az topla,
Qalmayıb canımda güc-qüvvət daha.
Gözlərim qurumur, ürəyim gülmür,
Sevincim yerini veribdi aha.

Getmişdi Elmanım, Rasimim mənim,
Ardınca Elnurum, Elşadım getdi.
Son zərbəni vurdu mənə Hüseynim,
Artıq şən yaşamaq mənimçün bitdi.

Deyirsiz özünü topla sən bir az,
Toplaya bilmirəm, dağılıram mən.

Gedənlərim gedib, geriyə dönməz,
Göz yaşı içində boğuluram mən.

Dünyada yox atam, yox mənim anam,
Həyatda qalıbdir ikicə bacım.
Həm dayım, həm bibim köçüb dünyadan,
Ürəyim göynəyir, yoxdur əlacım.

Bəlkə bacılarla tapam təsəlli,
Şirin sözləriylə ovuna biləm.
Yaxasından tutam mən ikiəlli,
Sığınam Allaha, ovuna biləm.

Sığınam Rəbbimin güc-qüvvəsinə,
Əmanət eyləyəm özümü ona.
Sığındım Allahın iradəsinə,
Özü yol göstərsin öz bəndəsinə.
Diz çöküb Allaha yalvarıram mən,
Özü səbir versin nə olar mənə.

***26 04 2022***

## YENİDƏN DOĞ GÜNƏŞ

Qüruba gedən Günəş,
Yenə doğ bahar çağı.
Yaşıllaşdır çəməni,
Çəməndəki zanbağı.

Nur saç dağa-dərəyə,
Nur saç bəndə-bərəyə.
Zərrin şəfəqlərinlə,
Bir pay göndər hər yerə.

Doğ, el-obam sevinsin,
Uşaqlar nəğmə desin.
Bahar gəlsin Vətənim,
Bayram libası geysin.

Nurun yeri dağlasın,
Təbim coşsun, çağlasın,
Qoy zərrin şəfəqlərin,
Bəzəsin dağ, bağları.
Qumru bu mənzərəyə,
Yeni dastan bağlasın.

## XALQIN SƏNİ SEVİR

***(Gözəl şairəmiz Telli Sənəmə)***

Tər sinəndən gələn nəfəs,
Yaşamağa verir həvəs.
Boyun əymə nakəslərə,
Yaxşılığa hər an tələs.

Bir lütfüsən sən Allahın,
Uzaq olsun dərdin-ahın.
Məhəl qoyma kimsələrə,
Səni sevir uzaq, yaxın.

Gülüş, sarsın gül üzünü,
Sev, qaraltma gündüzünü,
Döz, əyilmə naqislərə,
Elə tanıt sən özünü.

Sən saçaqlan sünbül kimi,
Ətrini yay tər gül kimi.

Yerin göstər nakəslərin,
Oxu şeyda bülbül kimi.

Vardı gözəl  xoş avazın,
Sinənə bas telli sazın.
Şeir söylə, mahnı oxu,
Xalqın sevir Telli qızın.

***03 07 2022***

## ŞUKR EDƏK RƏBBİMİZƏ

***( Məhəmmədin ad günündə***
***5-ci sinifdə oxuyanda)***

Dekabırın ikisində,
Bu dünyaya təşrif gətdi.
Atasını, anasını,
Gör nə qədər xoşbəxt etdi.

Şükür olsun Allahıma,
Bir oğlandı nur toputək.
Bacısına, qardaşına,
Olacaqdı arxa kömək.

Onu verən Allahımın,
Qurban olum qüdrətinə.
Ad qoyuldu Məhəmmədə,
Mustafanın hörmətinə.

Ad günüdür sizdə gəlin,
Təbrik edək Məhəmmədi.

Gəlin görün onda olan,
İstedadı, məharəti.

Görün necə idman edir,
İlan kimi qıvrılaraq.
Onu görən heyran olur,
Pis gözlərdən olsun iraq.

Belə igid bir oğlanı,
Tanrı bəxşiş verib bizə.
Onu bizə verdiyiçün,
Şukr edək Rəbbimizə.

*02 12 2002*

## BAĞIŞLA ALLAHIM

Hər gecə qaçırır mənim yuxumu,
O dünya sualı qəbir əzabı.
Allahım, qəlbimə sal öz xofunu,
Dilim dolaşmasın verim cavabı.

Bağışla sən özün günahlarımı,
Cənnətin ətrini  çatdır burnuma.
Gələn günahlardan sığındım sənə,
Məni qoyma gedim şeytan yoluna.

İnkirin-Minkirin suallarına,
Cavabım çox səlis, çox təmiz olsun.
Məni hazır eylə bu imtahana,
«Fatimeyi-Zəhra» yanımda olsun.

Qiyamət yaxındır, bilirəm bunu,
Qorxudan titrəyib ağlayıram mən.

Məndən uzaq eylə Zəban odunu,
Sənə ümidimi bağlayıram mən.

Bağışla dostları, ata -anamı,
Əf et bacı- qardaş, övladlarımı.
Qaynata-qaynana hər kimim vardı,
Bağışla təqvalı insanlarını,
Bağışla Allahım günahlarımı.

***30 04 2022***

## YAŞAYACAM SİZLƏRLƏ

Yaşım ötüb artıq, keçib altmışı,
İllərin var sifətimdə qırışı,
Ağartsamda şıvə kimi saç, başı,
Sönməyibdi ocağımda közüm var.

Cavanlığım gəlib ötüb keçsədə,
Karvanım da artıq köçün çəksədə,
Üz tuturam cavan nəslə, gənclərə,
Ürəyimdə deyilməmiş sözüm var.

Yığılanda qohum, dostlar bir yerə,
Çalışıram sevinc verim sizlərə,
Zarafatla söz deyərsəm bir kərə,
İnciməyin, sözlərimdə düzüm var.

Bu dünyanın çox görmüşəm cənnətin,
Ardıma bax, yol salmışam, izim var.
İstəmirəm bu dünyanın sərvətin,
Gedəriyəm, o dünyada gözüm var.

Fələk mənə qara etsə səhəri,
Qəbulumdu deyərəm var təhəri,
Yaxındadır ta ayrılıq kəhəri,
Həyatdayam, nə qədərki iznim var.

Gördüyüm yuxunu yoza bilmərəm,
Özüm öz ömrümü yaza bilmərəm,
Allahın yazdığın poza bilmərəm,
Yaşayaram, nə qədər ki izin var.

Bu dünyadan bir gün köçüb getsəmdə,
Ayrılıq şərbətin alıb içsəmdə,
Yaşayacam sevənlərin içində,
Kitablarım, şeirlərim, sözüm var.
Yaşayaram sevənlərim sizlərlə,
Ardıma bax, yol salmışam, izim var.

***29 10 2022***

## ALTMIŞ YAŞIN MÜBARƏK

***( Qardaşım Fərzalıya )***

Şükr olsun Allahıma,
Qismət oldu mənə də.
Altmışıncı yaşında,
Şeir yazdım sənə də.

Mənim kiçik qardaşım,
Fərzalı sənin adın.
Sən mənim uca tacım,
Ağzımda şirin dadım.

Ailənlə birlikdə,
Gözəl ömür sürəsən.
Əhəd balandan da sən,
Neçə nəvə görəsən.

Yığasan nəvələri,
Toplayasan başına.
Hərdən də göz altından,
Baxasan yoldaşına.

Altmış yaşın mübarək,
Arzum budur yüz yaşa.
Allah verən ömrünü,
Şad yaşa, xürrəm yaşa.

Mən də yüz beş yaşımda,
Gəlim sənin yaşına.
Təbrik üçün yenə də,
Söz deyim qardaşıma.

Zarafatdı bilki bu,
Xoş arzudu yazıram.
Allah nə ömür verib,
Onada mən razıyam.

***04 06 2021***

## HARA QAÇDIN GƏNCLİYİM?

Fikirlərim yenə uçur, yellənir,
Göz yaşlarım yanağımda sellənir,
Ürək susur, dodağım gileylənir,
Niyə küsüb məndən qaçdın, gəncliyim?

Xəyallarım yenə gənclik çağında,
Çiçək dərir yenə sevgi bağında,
Xəyallarım keçmişin sorağında,
Pərvaz edib quştək uçdun gəncliyim.

Vaxt var idi mən də gəncdim, cavandım,
Bir yar sevib eşq oduna qalandım,
Ömür keçdi, mən çapıldım, talandım,
Məni qoyub kimi seçdin, gəncliyim?

Diz tutulub, ta yeriyə bilmirəm,
Əvvəlkitək şaqqıldayıb gülmürəm.
Əmir yoxdu,  neynəyimki ölmürəm,
Məndən qaçıb hara köçdün, gəncliyim?
Sanki yoxdun, sanki heçdin, gəncliyim.

***25 07 2022***

## QARDAŞIMIN NƏVƏLƏRİ

***(Teymur və Zeynəb)***

Teymur balam qaşı qaram,
Ey atama ad daşıyan.
Bu nəsilə layiq yaşa,
Teymur sənin ulu baban.

Zeynəb sənin öz bacındır,
Qoru onu hər bir zaman.
Qardaş gərək bacısına,
Olsun kömək, olsun hayan.

Diləyirəm Allahımdan,
Hifz eyləsin özü sizi.

Söyləyirəm sizə qurban,
Bibi qəlbən sevir sizi.

Qardaşımın nəvələri,
Siz böyüyün, açın çiçək.
Əkbərimin balaları,
Biri igid, biri mələk.

Uğurunuz bol-bol olsun,
Arzuladı Qumru Qüdrət.
Tanrı sizə kömək olsun,
Qazanasız çox şan- şöhrət.

***07 03 2022***

## VƏCDƏYƏ GƏLDİM

Dayanıb baxıram  yenə Günəşə,
Səma qərq olubdu sanki gülüşə.
Par-par parıldayır zər saçaqları,
Qızdırır torpağı, həm ağacları.

İnsana ruh verir bu aydın səma,
Coşdurur, gətirir yenə ilhama.
Nə küləyi vardı, nə də çiskini,
Gözəllik vəcdəyə gətirir məni.

Günəşdən torpağa zər ələnibdi,
Ağacda meynələr şirələnibdi.
Günəş, torpaq, hava,  birləşibdi su,
Allahın verdiyi möcüzədir bu.

Yamyaşıl buluddur sanki meynələr,
Qızarıb gilənar, dəyib əriklər.
Belə gözəlliyi görən hər bir kəs,
Bilsin, möcüzədir çəkdiyi nəfəs.

Bir zərrə toxumdan ağac cücərir,
Böyüyür, nə qədər bar-bəhər verir.
Baxıb düşündükcə mən bu nemətə,
Allah qarşısında düşdüm səcdəyə.

Elə mehribandir bu uca Allah,
Bizi bizdən artıq o, sevir vallah.
Bu cür naz-neməti o verib bizə,
Biz də şükür edək öz Rəbbimizə.

Dayanıb baxıram yenə Günəşə,
Səma qərq olubdur sanki gülüşə.
Allah bəxş eyləyib bunları bizə,
Qumruda gördüyün çatdirdı sizə.

## TƏLƏSMƏ

Hər kəs əməlinə  verəcək cavab,
Kimsəni qınayıb eyləmə günah,
Onsuzda yazılır gühah, həm savab.
Allaha təvəkkül edib səbr eylə,
Qal-qeybət etməyə heç də tələsmə.

Dost səlam verməyib ötüb keçsədə,
Badəyə mey süzüb şərab içsədə,
Özündən boy deyib əkib biçsədə.
Allaha təvəkkül edib səbr eylə,
Nifrət eyləməyə heç də tələsmə.

Yar- yoldaş üzünə kəç-kəç baxsada,
Sənə etdiyini başa çaxsada,
Süddə qaymaq kimi üzə çıxsada.
Allaha təvəkkul edib səbr eylə,
Qəzafət etməyə çoxda tələsmə.

Qəsd ilə kim isə alçaltsa səni,
Qəlbinə doldursa qüssəni-qəmi,
Gözünün yaşın sil, göstərmə nəmi,
Allaha təvəkkül edib səbr eylə,
Kin -küdrəf etməyə heç də tələsmə.

Ürəkdən keçəni bilən Tanrıdır,
Gizlini, aşkarı görən Tanrıdır,
Əməlin əvəzin verən Tanrıdır.
Allaha təvəkkül edib səbr eylə,
Sən qiymət verməyə heç də tələsmə.

Zalım soyuq suyu qatsa aşına,
Dünyanı dar etsə sənin başına,
Həyatda nə çıxsa sənin qarşına.
Allaha təvəkkül edib səbr eylə,
Heyrət eyləməyə heç də tələsmə.

Xainin qəlbində sevinc yox, kin çox,
Özgənin uğruna o sevinər? Yox,
Sən ona Allahın qulu kimi bax.
Allaha təvəkkül edib səbr eylə,
Nəsihət etməyə heç də tələsmə.

İçdə gülüb çoldə saçın yolar o,
Şeytan olub ürəklərə dolar o,
Allah lənət etsə, söylə nolar o.

Allaha sığınıb bir az səbr eylə,
Hiddət eyləməyə heç də tələsmə.

Allah verəcəkdi onun cəzasın,
Sən əzmə, sındırma onun əzasın,
Allah mübarək et,  onun qəzasın.
Allaha sığınıb bir az səbr eylə,
Heyrət eyləməyə heç də tələsmə,
Qüdrət,  səbirli ol sən də tələsmə.

***29 01 2022***

## ÇIXAR EYNƏYİNİ

***(Avtobusda gördüyüm bir qıza yazmışam)***

Qız, sənin üzündə bir lətafət var,
Əsmər sifətində bir əsalət var,
Üzündə ismət var, bir təravət var.
Çıxar eynəyini, üzünü görüm,
Xoş, şirin sözlərdən bir çələng hörüm.

Eynəyin altından baxırsan ürkək,
Sən pəri timsallı bir körpə mələk,
Adını de barı, adını bilək.
Çıxar eynəyini, gözünü görüm,
Xoş, şirin sözlərdən bir çələng hörüm.

İstəyirsən deyim sözün düzünü,
Aya bənzədirəm sənin üzünü,
Gizlətmisən eynək ilə gözünü.
Çıxar eynəyini, gözünü görüm,
Xoş, şirin sözlərdən bir çələng hörüm.

Qara kipriklərin çinara bənzər,
Üzündə astaca təbəssüm gəzər,
Allah hifz eyləsin, dəyməsin nəzər.
Çıxar eynəyini, gözünü görüm,
Xoş, şirin sözlərdən bir çələng hörüm.

Lalə yanaqların səyriyir hərdən,
Qönçə dodağına yağıbdı şəbnəm,
Qumrunu sən heyran etdin, ey sənəm.
Mən səni nəvəmin yanında görüm,
Xoş, şirin sözlərdən bir çələng hörüm.

***12 05 2021***

## MƏN OLMASAM DÜNYADA

Mən köçərsəm əgər bir gün dünyadan,
Ağlamayın, bacılarım dik durun.
Göz yaşların muncuq kimi düzməyin,
Ağlayaraq körpələri üzməyin.

Gər köçərsəm məndə bir gün dünyadan,
Oğlanlarım dik dayanın, dik durun.
Göz yaşıyla bacınızı süzməyin,
Hökmüyəmi, Nəzrinimi üzməyin.

Mən köçərsəm gərki bir gün dünyadan,
Qardaşlarım, sizdə məyus olmayın,
Boynu bükük çiçək kimi durmayın,
Dik dayanın, saralmayın, solmayın.

Əgər köçsəm mən də bir gün dünyadan,
Gülsümümə deyin saçın yolmasın.

Nissan olsun, abu - leysan olmasın,
Fatiməm də bulud kimi dolmasın.

Mən köçərsəm yarım qalsa dünyada,
Ağlayaraq siz onu incitməyin.
Bu mənim sizlərdən son istəyimdi,
Kövrəltməyin siz yarımı, üzməyin.

Mən köçərsəm əgər bir gün dünyadan,
Ey Səbuhim, Elxanımla Cavidan.
Siz dik durun polad kimi hər zaman,
Əyilməyin, siz yay kimi olmayın.

Mən köçərsəm əgər bir gün dünyadan,
Gəlinlərim, kürəkənim sizlərdə,
Özünüzü  heç vaxt ruhdan salmayın,
Məğrur olun, mənsiz qəmgin olmayın.

Mən köçərsəm əgər bir gün dünyadan,
Yaxın dostlar, ey qohumlar, qonşular...
Sizdə məni xatırlayın arada.
Xatırlayıb məni salsanız yada,
Mən də bilin, rahat yataram orda.

Mən olmasam əgər bir gün dünyada,
Göz yaşları siz tökməyin nə badə.
Götürün oxuyun şerlərimi,
Bu şeirlə sizlərə etdim vida.
Tapşıraraq sizləri Allaha mən,
Söyləyirəm sevdiklərim əlvida.....

***07 09 2022***

## RAHAT YAT GÜLÜM

***(Əmiqızımın dilindən)***

Hicranın əlindən dinə bilmirəm,
Kimsəylə danışıb gülə bilmirəm.
Yanıram həsrətin-qəmin içində...
Tütrüyən köz kimi sönə bilmirəm.

Çatsamda ömrümün ahıl yaşına,
Sənsizlik hökm edir tək otağıma.
Mən elə bağlandım, sevdim ki səni,
Dolur hər gün sənsiz qor yatağıma.

Getdiyin o yoldan dönə bilməzsən,
Mələksən, göylərdən enə bilməzsən.
Xəyalda baxsada gözün gözümə,
Süzülən göz yaşım silə bilməzsən.

Bir gecə yuxuma gələrək yenə,
Dedinki bir daha ağlama, mənə.
O gecə yuxudan qalxıb hövlənak,
And içdim ürəkdən, söz verdim sənə.

Daha sızlamaram,  etmərəm ah -zar,
Dünyanı başıma eyləmərəm dar.
Sın rahat yat gülüm, öz məzarında,
Ulu Tanrım özü olsun mənə yar.

***09 02 2022***

## SƏN YÜZ YAŞA

***(Qardaşım nəvəsi Emilin ad gününə)***

Anasının ürəyidir,
Nənəsinin gərəyidir.
O dostudur atasının,
Babasının köməyidir.

Hər gün səhər tezdən dürür,
Əlin, üzün təmiz yuyir.
Evdən çıxır geçikmədən,
Öndə durub himn oxuyur.

Dostlarıyla deyir, gülür,
Hər nəyi var dostla bölür.
Əlaçıdır bizim Emil,
Müəllimlər  onu sevir.

Bu il çatır  on bir yaşa,
Hər bir işi bir tamaşa.
Təbrik edir Qumru bibi,
Deyir Emil sən yüz yaşa.

***05 07  2022***

## NƏRGİZLƏRİM

Həyətim bir gül bağçası,
Çiçək açıb nərgizlərim.
Darıxmışam, gözləmişəm,
Açıb mənim nərgizlərim.

Dəstə durna uçan zaman,
Yurdumuza köçən zaman,

Əriklər gül açan zaman,
Gül açıbdır nərgizlərim.

Həyətimə gəlib bahar,
Nəğmə deyir gözəl quşlar,
Həyətimdə çox çiçək var,
Erkən açıb nərgizlərim.

Gül açıbdır orda-burda,
Uşaqlığım düşüb yada,
Mən olmasam bu dünyada....
Soluxmayın nərgizlərim,
Yenə açın nərgizlərim.

## MƏNİM AXTARDIĞIM ANADIR, ANA

Mənim bu hayqırıb, harayladığım,
Altmışı ötsəmdə həp aradığım,
Onun yoxluğuna inanmadığım,
Mənim axtardığım, şirin bir nemət.
Dünyanın ən şirin bir varlığıdır,
Anasız qızların axtardığıdır.

Onu xatırlayıb uşaqlaşdığım,
Xəyalən ağ saçın tumarladığım,
Ata ocağından hey axtardığım,
Mənim axtardığım əziz bir qismət.
Dünyanın ən şirin bir varlığıdır,
Anasız qızların axtardığıdır.

Məni anlayan da, duyanlarda var,
Gecəni yatmayıb ağlayan da var,
Səbirli ol deyib danlayan da var,

Mənim axtardığım bal kimi şərbət.
Dünyanın ən şirin bir varlığıdır,
Anasız qızların axtardığıdır.

Mənim çəkdiyimi yaxşı bilənlər,
Axıdıb göz yaşın gizli silənlər,
Ayağa daş dəysə «Ana» deyənlər,
Mənim axtardığım gözəl fəzilət.
Dünyanın ən şirin bir varlığıdır,
Anasız qızların axtardığıdır.

Dünyada ölüncə gəzirik onu,
Bu arzu, diləyin yoxdur bir sonu,
Allahım əvəzsiz yaradıb onu.
Mənim axtardığım anamdır əlbət,
Allah yaratdığı bir gözəl afət.
Dünyanın ən şirin bir varlığıdır,
Bütun övladların axtardığıdır.

***07 10 2022***

## LƏQƏBİM YETİM

***(Anam həmişə deyərdi ki, atam-anam on beş günün için-də dünyasını dəyişdiyinə görə o vaxtdan adımız yetim qaldı. Anamın dilindən)***

Ana əllərinə həsrətdir əlim,
Ana həsrətiylə ağardı telim,
Ana söyləyəndə titrəyir dilim,
Anasız övladam, ləqəbim yetim.

Hələ də yol çəkir həsrətli gözüm,
Ürəyim dərdlidir, gülsədə üzüm,

Hisslərim qarışıq , tapmıram çözüm,
Anasız övladam, ləqəbim yetim.

Altı yaşımdaykən itirdim onu,
Altmış il gəzsəmdə tapmadim onu,
Bu nisgilin hələ çatmayıb sonu,
Anasız övladam, ləqəbim yetim.

Atam da yox mənim, olmuşam yesir,
İllərdi bu yoxluq kələyim kəsir,
Oğlum ata deyir ürəyim əsir,
Ata – anasızam, ləqəbim yetim.

Anam yada düşcə göz yaşım çağlar,
Elə bil üstümə yıxılır dağlar,
Mənim taleyimi bilənlər ağlar,
Ata-anasızam, ləqəbim yetim.

Üç qardaşım vardı, yox idi bacım,
Qardaşlar arxamdı, yarım baş tacım,
Əzizlik görsəmdə, bitmirdi acım,
Ata-anasızam, ləqəbim yetim.

Allaha tapındım, sığındım ona,
Mənə qismət etdi, dörd gözəl sona,
Allahım üç igid bəxş etdi mənə.
Allah verdiyinə çox şükür dedim,
Neynimki hələ də ləqəbim yetim.

***20 04 1995***

# QƏMDƏN YAZMA

***( Məmməd Qədirin şeirlərin oxuyandan sonra)***

Şair, yenə qəm alıbdır üzünü,
Sızıldadır, qəm ağladır sözünü,
Bilmirəm ki kim ağladıb gözünü,
Sözlərindən qəm süzülür, ay şair!

Bəlkə vaxtsız həyatına yel əsib,
Bəlkə namərd yollarına sədd çəkib,
Həyat qara zülflərinə qar əkib,
Sözlərindən bəm süzülür, ay şair!

Söyləyirsən, məni öldür Yaradan,
Həyatım seçilmir artıq qaradan,
Dedin dərdlərimi bilmir  ki, loğman,
Sözlərindən nəm süzülür, ay şair!

Qoy yetişsin Yaradanım dadına,
Yanmayasan birdə fələk oduna,
Heç yaraşmır qüssə sənin adına,
Sözlərindən dəm süzülsün, ay şair!

Mən istərəm, üzün gülsün hər zaman,
Kam alasan, yenə gözəl dünyadan,
Başında dayansın uca Yaradan,
Sözlərindən bal süzülsün, ay şair!

Qəm olmasın heç bir zaman həmdəmin,
Sevinc olsun hər bir zaman sərvətin,
Qardaşısan axı  Qumru Qüdrətin.
Şeirində  qəmdən yazma, ay şair!
Qəm yazaraq məni üzmə, ay şair!

## SEVİNC İLƏ YAZ

***(Məmməd Qədirin "Mən yoxam" şeirinə )***

Şair, yenə baxma belə qəm ilə,
Fikirlərin yığ bir yerə cəm elə,
Kükrəyərək bəndləri aş, dön selə,
Qoy sevincin dilə gəlsin, ağlama.

Dünya səni niyə üzüb, de, belə?
Həyatını vermə küləyə, yelə,
Dön bülbülə, nəğmə söylə sən gülə,
Qara geyib, yenə qara bağlama.

Bulud kimi gözlərini qəm alıb,
Həyat qara tellərinə dən salıb,
Oturmusan, yenə fikirə dalıb,
Köklənərək qəm yükünə, çağlama.

Almayıblar səndən dünya bacını,
Salmaginən ürəyinə acını,
Sən incitmə nolar, Qumru bacını,
Qəmdən yazıb ürəyini dağlama.

Sən yazanda sevinç ilə yaz bir az,
Qəm-kədəri üzündən at az bir az,
Dünya fani, gedər, heç kimə qalmaz.
Yaz yazanda sevinc ilə, ağlama,
Qəmdən yazıb ürəkləri dağlama.

***25-07-2022***

## BUYURUN GƏLİN

*(Şair qardaşım İbrahim Yusifoğluna)*

Güllü, çiçəklidir yam-yaşıl bağım,
Tutun, gilənarın yetişən çağı.
Muşmalatım, alçam saçaqlanıbdır,
Heyran eyləyibdi gələn qonağı.

Ağaclar yamyaşıl barlı-bəhərli,
Qara gecələrim aydın səhərli.
Azan gülü açıb, gəl gözünlə gör,
Azan veriləndə axşam tərəfi.

İndi bağ- bağçamın öz növrağı var,
Çəhrayı çiçəkli bu ağacda, nar,
Gavalı, qarağat təzə qızarar,
Yetişibdi ərik, gəl, sən də apar.

Həyətim görünür göy dəniz kimi,
Havası tər-təmiz, əndəmiş kimi,
Ey əziz qohumlar, ey əziz dostlar!
Dəvət eyləyirəm , buyurun gəlin,
Gəlin əzizlənin bir əziz kimi!

## BİZ ÜRƏKDƏN TƏBRİK EDƏK

*( Nəvəm Səbuhinin nişanında)*

Üz tuturam Allah sənə,
Təşəkkürüm vardı yenə.
Diləyimi qəbul etdin,
Nişan gətirdim nəvəmə.

Şirin nəvəm  şöhrət-şanım,
Sənə qurban dövlət-malım.
Bu gözəllə can Səbuhim,
Mübarəkdir toy-nişanın.

Züleyxayla xoşbəxt yaşa,
Mən də baxıb gəlim cuşa.
Nəticəmə şer yazım,
Oda olsun bir tamaşa.

Əziz dostlar yeyək, içək,
Biz sevinək, deyək, gülək.
Əl çalaraq bu gəncləri,
Biz ürəkdən təbrik edək.

***16 10 2022***

## TƏKƏBBÜRLÜ OLMA

Bu dünyanın bacını,
Bacını,  xəracını,
Almayıblar əlindın.
Niyə üzün gülməyir,
Xoş söz gəlmir dilindən?

Nə qədər inadkarsan.
Nə qədər laqeyidsən?
Tüklərin biz-biz olmur,
Niyə olub bitəndən?

Var gözəl yaraşığın,
Amma ki, duruşuğun,
Mənfi energi verir,
Ətrafına hər zaman.

Özünü çəkib durma,
Hər yerdə lovğalanma,
Baxışınla heç kimi,
İlantək çalıb vurma,

Axı gözəl doğubdur,
Səni o yazıq anan.
Niyə o gözəl gözdən,
Qalxır nalə, ah, duman?

Özünü tənbeh eylə,
Belə olmaz ey insan.
Yaxınların halın sor,
Dara düşdüyü zaman.

Qorxuda saxlamaki..
Qoca, cavan uşağı,
Yuxarıdan baxırsan,
Niyə üzü aşağı?

Səni sevən kəslərə,
Vermirsən gün işığı.
Alçaq, könüllü olmaq,
İnsanın yaraşığı.

İnsanı insan eylər,
İnsanın təfəkkürü.
Allahım heç sevməyir,
İnsanda təkəbbürü.

Nə qədər insan gəlib,
Gedəcək günün biri.
Baxarsan taxtdan düşdün,
Sən də günlərin biri...

O zaman görərsənki,
Yan-yörən boş qalıbdı,
Sənin öz əməllərin,
Səndən qisas alıbdı.

Qayıt bu yoldan, qayıt..
Gec olmayıb nə qədər.
Haqq yolu tut qəlbini,
Qoy almasın qəm-kədər.

Qumru dedi sözünü,
Dedi sözün düzünü.
Kimdə belə əməl var,
Yığışdırsın özünü.

***30 04 2022***

## BAYRAM AYI

Mart ayına girəndən biz,
Fərəhlənir ürəyimiz.
Bu büsbütün bayram ayı,
Mən söyləyim sayınız siz.

İlk çərşənbə od bayramı,
Tonqal çatır bu gün hamı.
Yel çərşənbə, su şərşənbə.
Süfrə bəzə, yandır şamı.

Bax yetişdi son çərşənbə,
Baş qaldırdı gül, bənövşə.
Torpaq qalxdı yatağından,
Novruzgülü çıxdı döşə.

Unutmayın bunu dostlar,
Səkkizi mart bayramı var.

Anaları təbrik edin,
Sevinsinlər qoy analar.

Ad günümdür on səkkizi,
Gözləyirəm dostlar sizi.
Gəlin bizə deyək, gülək,
Sevindirin dostlar bizi,
Sevindirsin Allah sizi.

***05 03 2008***

## UÇUM GƏLİM

***(Oğlumun ad günündə)***

Səni təbrik etmək üçün,
Burdan ora qaçım, gəlim.
Könlün məni istəyirsə,
Quştək qanad açım gəlim.

Axı sənsiz dözəmmirəm,
Mən yanına uçum gəlim.
Balam səni qucmaq üçün,
Qollarımı açım gəlim.

Səmalardan baş tacıma,
Göydən ulduz dərim gəlim.
Pəncərədən otağına,
Güntək şəfəq saçım gəlim.

Həsrətini mən çəkməkdən,
Ağarıbdı saçım mənim.
Bu ağaran saçlarıma,
Alıb həna çəkim gəlim.

Sənə indi çatmaq üçün,
Abu - kövsər içim gəlim.
Səni öpüb qucmaq üçün,
Mən Bakıya uçum gəlim.

***2004***

## YARADIB ALLAH

Bütün insanları yaradıb Allah,
Kiminə pak ürək, idrak veribdi.
Birini çox kasıb eyləyib vallah,
Birinə var-dövlət, əmlak veribdi.

Hər zaman Allahı sən sal yadına,
O sənə düşüncə, kamal veribdi.
Ozünü borclu bil sən Yaradana,
O sənə iradə, amal veribdi.

Allahıma şükür edirəm mən də,
O mənə görən göz, eşidən qulaq,
Yaşamaq uğrunda çalışmaq üçün,
O mənə veribdi saf can, əl-ayaq.

Qumruyam, təşəkkür etdim Rəbbimə,
Veribdi o mənə eşqi, ilhamı.
Ürəkdən gələni ağ kağız üstə,
Bəxş edib o mənə yazmaq imkanı.

# TƏNHA ÇİÇƏK

Tənha çiçək, tənha çiçək,
Açılıbdır ləçək-ləçək.
Xəzan vaxtı gül açıbdır,
Üzərində yoxdu böcək.

Tənha çiçək boynun burub,
Ləçəklərin şaxta vurub.
Qar altından qalxıb baxır,
Gülümsəyir ürkək-ürkək.

Qərib eldə, qərib yerdə,
O torpaqdan güc alıbdır.
Öz gücüylə, hünəriylə,
Şaxələnib ucalıbdır.

Bir bülbülün eşqi ilə,
Məhəbbəti gəlir dilə.
Qarlı qışdan çəkinmədən,
Çiçəkləyir gülə- gülə.

Qorxmayır ki boran, qardan,
İlham alır o, bahardan.
Ümid var ki , ilk baharda,
Açacaqdır yenə çiçək.

Tənha çiçək, tənha çiçək,
Gülümsəyir ürkək- ürkək.
Xəzan vaxtı gül açıbdı,
Üzərində yoxdu böcək.

***2020***

## SƏNSİZƏM AY ANA, BAŞIM DUMANDI

Yenə tezdən oyanmışam sübh çağı,
Sənsizlik bürüyüb evi, otağı,
Anasızam, çəkəmmirəm bu dağı.
Sən yada düşmüsən hal pərişandı...
Sənsizəm ay ana, başım dumandı.

Dikilib gözlərim göydə ulduza,
Xəyalım yenə də getdi o, yaza,
Gözümdən yaş axdı, süzüldü üzə.
Gözümdən süzülən yaş deyil, qandı...
Sənsizəm ay ana, başım dumandı.

Həyətə baxıram, duman sürünür,
Göy üzü ağappaq tülə bürünür,
Sənin çadran kimi dümağ görünür.
Sürətin gözümdə gəlib dayandı....
Sənsizəm ay ana, başım dumandı.

Fikrimdə canlanır o məsum üzün,
Qarşımda nurlanır o şəhla gözün,
Səninlə danışıb gülürəm özüm.
Getmə xəyalımdan, getmə amandı...
Sənsizəm ay ana, başım dumandı.

Xəyalımda baş qoymuşam dizinə,
Gözümü dikmişəm şəhla gözünə,
Qulağım sevinir şirin sözünə.
Xəyalın çəkildi, qəlbim talandı...
Sənsizəm ay ana, başım dumandı.

Göy üzü üzünü andırır mənə,
Ulduzlar gözünü andırır mənə,
Sənsizlik alovu yandırır yenə.
Həsrətə dözməyən qəlbim virandı...
Sənsizəm ay ana, halım yamandı.

Bu dünyanın baş açılmaz işi çox,
Qınamıram mən fələyi, onu yox,
Tükənməzdir ,ayrılığın sonu yox.
Sənə səsim çatmır, qəlbim şan- şandır...
Sənsizəm ay ana, başım dumandir.

Gün keçib, ay ötüb, illər ötsədə,
O vaxtdan neçə il gəlib keçsədə,
Ayrılıq, həyəcan keçib bitmədi.
Həsrətdən ürəyim oda qalandı...
Sənsizəm ay ana, halım yamandı.

Bu səhər sübh çağı namaza durdum,
Sən köçən o səhər gözümdə durdu,
Sənsizlik alovu məni qovurdu.
Göz yaşım çağladı, sanki ümmandı...
Sənsizəm ay ana, halım yamandı.

Yada büşdü sənlə namaz qılmağım,
Yada düşdü səninlə  yaşamağım,
Yada düşdü yenə sənsiz olmağım.
Yada düşdü, yenə ürəyim yandı...
Sənsizəm ay ana, başım dumandı.

Gətirmisən bu dünyaya sən məni,
Öyrətmisən mənə hər bir kəlməni,
Sözlərimlə yaşadaram mən səni.

Ürək coşdu, sözüm sözə calandı...
Sənsizəm ay ana, başım dumandı.

Qumru Qüdrət, gəl bu qədər sızlama,
Anan dönməz artıq, onu gözləmə,
Nöqtəni qoy, daha bəsdi, döz buna.
Hər kəs gedər, sözlər isə qalandı...
O mələyə dönən sənin anandı....
Oxucular bu mələyi tanıdı.

## ÖLƏRƏM YAZMAYANDA

Bu məndə nə adətdir,
Heç özumdə bilmirəm.
Kimdənsə inciyəndə,
Ya qəlbən sevinəndə.
Ürəyimdən keçəni,
Həm sevinci, həm qəmi,
Ürəyimə çəkirəm.
Gözlərimin yaşını,
Ürəyimə tökürəm.
Çəkilib bir bucağa,
Göz, qulaqdan irağa.
Hislərimi birbəbir,
Tökürəm ağ varağa.
Ağlayıram qələmlə,
Sevinirəm varaqla.
Vuruşuram sitəmlə,
Vuruşuram nahaqla.
Dilimə gələnləri
Qəlbimdən keçənləri,

Söyləmirəm heç kəsə.
İstəmirəm kimsəni,
Məndən inciyə, küsə.
Hirsimi, həm qəmimi,
Özümünkü bilirəm.
Ağlayıb gözlərimi,
Mən xəlvətcə silirəm.
Qələm mənim yoldaşım,
Dəftər mənim sirdaşım.
Ürəyimdə hər nə var,
Sevinc də var, qəm də var.
Ağ varağa tökürəm,
Ürəyim sakitləşir.
Dəftərimi bükürəm,
Qəm qalsın ürəyimdə.
Sevincim, kədərim də,
Heç kəsə bildirmirəm.
Nəsə mənə dəyəndə,
Ürəyim qövr edəndə,
Qələmə sarılıram.
Sözlərimi yazanda,
Ölürəm, darılıram.
Beynim ümmana dönür,
Coşan dəniz oluram.
Sanki günəşim sönür,
Bulud kimi doluram.
Yazdakı leysan kimi,
Göz yaşımı süzürəm.
Birbəbir hislərimi,
Ağ varağa düzürəm.
Alışan qəlbim sönür,
Mən tərtəmiz oluram.
Qəlbimə dolur səbir,

Sakitləşib qalıram.
Anlayan, duyan bilsin,
Şair olmaq çətindir.
İstəyən mənə gülsün,
Bu mənim xislətimdir.
Yaza-yaza gözümdən,
Nə qədər yaş tökürəm.
Qumruyam, oxucular,
Bilin, mən nə çəkirəm...
Sizə sağ ol deyərək,
Dəftərimi bükürəm.

## ÇÖLLƏRİMƏ YAZ GƏLİR

Bulud dolub göy üzü qaralanda,
Bülbül ötüb bağda fəğan salanda,
Sellər aşıb arx su ilə dolanda,
Bilirəmki çöllərimə yaz gəlir.

Qaranquşlar yenə yurda köçəndə,
Kəpənəklər gül üstündə uçanda,
Qızılgüllər bağda ətir saçanda,
Bilirəmki ellərimə yaz gəlir.

Şaqq eləyib ildırımlar çaxanda,
Göy gurlayıb leysan yağış yağanda,
Fatma nənə xalısın toxuyanda,
Bilirəmki çöllərimə yaz gəlir.

Yasəmənlər darayanda saçların,
Bənaövşələr göstərəndə başların,
Papatiya göstərəndə dişlərin,

Bilirəmki çöllərimə yaz gəlir...
Güllər açır Vətənimə yaz gəlir.

## RAMAZAN RƏHMƏT AYI

Rəhmət ayı gəldin bizə,
Şərafətə tuş eylədin.
Cənnət yaxın oldu bizə,
İbadəti xoş eylədin.
Tutduq oruc, qıldıq qəza,
Qeybətdən uzaq eylədin.
Verdik fitrə, həm sədəqə,
Nifrətdən uzaq eylədin.

Ramazan həm rəhmət ayı,
Həmdəki barış ayısan.
Əziz ay sən, on bir ayın,
Padşahısan, sultanısan.

Əssəlamla qarşıladıq,
Üç geçə əhya saxladıq.
Dua etdik səhərəcən,
Nurlanaraq işıqlandıq.

Mələklər enib dolandı,
Hər kəsə verdi payını.
Yer üstünü nurlandırdı,
Əziz etdi bu ayını.

Ramazanın çatdı sonu,
Əziz ayı saldıq yola.

Məyus etdi sevənləri ,
Söyləmədik biz əlvida.
Get uğurla qayıt dedik,
Salamat get, get hələlik.
On bir aydan sonra yenə ,
Biz səninlə görüşərik.
Qismət edər Allah bizə,
Biz yenidən görüşərik.

***İnşəAllah***


Bu dünyada şirin şey,
bir Anadır, bir Vətən.
Azərbaycan Atalar Sözü

# POEMALAR

# SƏNLƏ YOL YOLDAŞIYAM

## ANA

***(Yaxın bir qohumum Vahidin ata-ana hısrəti)***

Ana!
Bu söz necə müqəddəsdir!?
Bu sözdən mən heç doymadım...
Körpə ikən kimdən isə inciyəndə,
mən küsəndə, ağrıyanda, ağlayanda,
İsti ana qucağında, sığarlanıb uyumadım.
Uşaqlıqdan
            gözü yaşlı,
Baharımda qarlı qışlı,
Boynu bükük lal baxışlı,
Ürkək ceyran balasıtək,
             böyüdüm mən.
Başqa şıltaq uşaqlartək,
   əzizlənib sevilərək.
Eşitmədim şirin ana,
       öyüdün mən,
Ata-ana həsrətini,
     mən çəkərək,
utanaraq, çəkinərək,
Körpəlikdən məzar üstə,
        öğrun- oğrun,
Baxdım ana baş daşına,
İçimdə ah çəkə- çəkə,
          durğun-durğun...
Baxdım ata başdaşına,
Daş altından gülümsəyən.
Baxdım ana gözlərinə,

Daş altından mənə baxan.
Baxdım ata gözlərinə,
Həsrət qaldım ılıq ana nəfəsinə.
Şirin ata sözlərinə,
Ana!
Bu necə bir nemətdir ki! ?
Bu necə bir afətdir ki! ?
Bu müqəddəs sevgilidən,
        heç doymadım,
İlıq ana nəfəsini, tumarını,.
Həzin ata öyüdünü, sığarını,
heç dadmadım,
          heç duymadım.
Qırx yaşıma çatsamda mən,
Ana adı gələn zaman.
Sevıncli, şən olsam belə,
Ata adı gələn zaman.
Ürəyimdə qopur tufan,
Gözlərimi alır duman.
Bulud kimi doluram mən,
Yenə həmin doqquz yaşlı,
körpə uşaq oluram mən,
Ana!
Körpəlikdən həsrət qaldım,
Belə gözəl bir afətə.
Belə şirin bir nemətə.
Gözlərimdən yağdı leysan,
Mən nə deyim bu qismətə,
Ana!
Bu necə bir varlıqdı ki!?
Heçnə ilə, heç kim ilə,
                əvəz olmur.
İllər keçir, heç bir zaman,

yeri dolmur
Bu dünyada hər şeyim var,
Qızım, oğlum, gözüm, əlim.
Amma hələ hey yanıram,
Həsrətiylə bu mələyin.
Yanımda var övladlarım,
Yaxınlarım, qohumlarım.
Həyatdadır bacılarım, qardaşlarım,
Yanımda var gözəl yarım.
Amma yoxdur bu dünyada,
Ana adlı bir sənəmim.
Bir dilbərim, bir afətim.
Əvəzi yox ata adlı, ana adlı,
bir nemətin.
Sızlayıram için-için,
Yanımda yox,
mənim ilkin,
Allah verən məhəbbətim.
Ana adlı bir nemətim.
Ömrüm boyu yanacağam,
Hey anamı anacağam,
Həsrətindən donacağam,
Belə imiş ta qismətim.
Tez tərk etdi məni ilkin məhəbbətim,
Baldan şirin bir nemətim.

## DÖNMƏ AZƏRBAYCANA

Harın insan axı sən,
Niyə gəldin dünyaya?
Yeyib, içib, gəzməyə,
Gecə dalmaq röyaya?
Laqeyid dolanaraq,

Meşşantək qocalmağa?
Biri yıxılan zaman,
Ona baxıb gülməyə?
Bir varlı görən zaman,
Yay kimi əyilməyə?
Biri ucalan zaman,
Ayağından çəkməyə?
Şeytantək danışaraq,
Şər toxumu əkməyə?
Niyə üzün gülməyir,
Birisi sevinəndə?
Kim isə ağlayanda,
Əlin gəlmir silməyə?
Vətən darda olanda,
Qaçaraq gizlənmisən.
Xalqını darda qoyub,
Yad ölkəyə getmisən.
Vətən nədir deyəndə,
-Vətən mən özüm, dedin.
Vətəndə yığdığını,
Gedib xaricdə yedin.
Sən necə vətəndaşsan?
Sanki ürəyi daşsan.
İndi dönüb gəlmisən,
Ordum zəfər çalanda.
Guyaki sevinmisən,
Xalq zəfər qazananda.
Vətən darda olanda,
Sən Vətəndə qalmadın.
O ağır zamanlarda,
Yanımızda olmadın.
İndidə öyünərək,
Qəhrəmanıq deyirsən?

Sayım, kimdir qəhrəman?
Sən, qəhrəman deyilsən!
Qulaq as harın insan,
Bu qədər Şəhid verən,
Analardı qəhrəman.
Yarı gedib gəlməyən,
Sonalardı qəhrəman.
Sosial mediada,
Maşında, radioda,
Evdədə televizorda,
Hər gün baxıb izləyən.
Ağır xəbər gələndə,
Gözlərindən yaş süzən,
İrəliyə gedəndə,
Ordusuyla öyünən,
Rəhbəriylə öyünən,
Böyük xalqdı qəhrəman.
Ata yolu gözləyən,
Gözundən yaş ələyən,
Atamı istəyirəm,
Titrək səs ilə deyən,
Uşaqlardı qəhrəman.
Qarnında ilk körpəsi,
Üzlərə donub baxan,
Baxışıyla ağlayıb,
Ürəkləri dağlayan,
Göz yaşı gizli axan,
Gəlinlərdi qəhrəman.
Üç körpəylə tək qalan,
Çarəsiz sonalardı.
Tək balasın itirən,
Biçarə analardı.
Əlində ağac ilə,

Dolanan qazilərdi.
Bir gözünü, qolunu,
Cüt ayağın itirən,
Kresloda oturan,
Hələdə xəstə yatan,
Qazilərdi qəhrəman.
Qaziləri böyüdən,
Atalardı qəhrəman.
Otuz il əsir qalan,
Yaralı torpaqlardı.
Qapısı bağlı qalan,
Evlərdi, otaqlardı.
Düşmən əllərin yuyan,
Bal kimi bulaqlardı.
Axıdaraq qanını,
Torpaqları uğrunda.
Qurban verən canını,
Duşmənləri qovlayan,
Şəhidlərdi qəhrəman.
İndi bildinmi kimdi?
Vətəni canından çox,
Sevənlərdi qəhrəman.
General, zabitimdi,
Çavuşum, əsgərlərim.
Xalqla bir yumruq olan,
Rəhbərimdi qəhrəman.
Vətən darda olanda,
Vətənin qoruyanlar.
Vətənçün candan keçib,
Ona qurban olanlar.
Aslan kimi vuruşub,
Ölənlərdi qəhrəman.
Sən.........................!?

Sən Vətəndən getmisən,
Vətən darda olanda.
Qayıtmısan, gəlmisən,
Ordum zəfər çalanda.
Kafedə, restoranda,
Yeyib-içib gəzirsən.
Əlinə badə alıb,
Hərdəndə tost deyirsən.
Güyaki sevinirsən,
Ar edib çəkinmədən.
Gülürsən harın- harın,
Ardınca lağ edirsən.
Hərdəndə kasıbların,
Yeri duşdü, düşmədi,
Hərdən bir də arada,
Dodağın arasında,
Mızıldanıb deyirsən.
Yaşamaq çox çətindi,
Hələ bizim ölkədə.
Gərək orda qalaydım,
Qayıtmazdım bəlkə də.
Deyib, şərab süzürsən,
İçib, ağzın(ı) büzürsən.
Qumruda sənə deyir,
Qulağını aç, eşit.
Bizə aslan gərəkdir,
Vətənçün candan keçən.
Daha qorxaq tülkü yox,
Millətin malın sökən.
İnsan demək çətindir,
Səntək harın insana.
Gərək ki, dönməyəydin,
Bir də Azərbaycana.

Yığış, get yad ölkəyə,
Dönmə Azərbaycana.
Bizim azad ölkədə,
Yer yox səntək insana.

***22 07 2022***

## GÜNƏŞLƏ BARIŞMIŞAM

Bir gecə yatmışdım mən,
Qarışdırdım röyamı.
Sıçrayıb qalxdım yerdən,
Mən yozmamış röyamı.
Telefona zəng gəldi,
Titrədim, əsdim-əsdim.
Üzüm neçə rəng aldı,
Telefona tələsdim.
Axı anam xəstəydi,
Ağır səfər üstəydi.
Ürəyimiz gülmürdü,
Qulağımız səsdəydi.
Qorxaraq, çəkinərək,
Hövlənaq, tələsərək,
Qaldırdım telefonu.
Səslənən bacım idi.
Onun verdiyi xəbər,
Nə qədər acı idi.
O, hal-əhval tutmadan,
Ağlayaraq söylədi.
Söküləndə səhər, dan,
Anam köçdü dünyadan.
Götür Səriyyənidə,
Tez yetişin, durmadan.
Gövhərin hıçqırığı,

Qəlbimi dəldi, keçdi.
Elə bildim o anda,
Ruhum canımdan uçdu.
Səhərin bu sübh çağı,
Naləm tutdu otağı.
Bilmədim nə eyləyim,
Əlim, dizlərim əsdi.
Bacıma nə söyləyim?
Xəbər kələyim kəsdi.
Udqunub telefonda,
Gəlirəm bu dəqiqə.
Astaca belə dedim,
Telefonu bağladim.
Hönkürərək ağladım,
Bilmirəm necə olub.
Yerə necə düşmüşəm,
Körpə oğlum oyanıb.
Elə bilib ölmüşəm,
Silkələyib, oyadıb.
Qalx, oyan, ölmə ana,
Yadımda bir o qalıb.
Yazığım gəldi ona.
Axı mən qırx yaşımda,
Anamı itirmişəm.
Onun on üç yaşı var,
Zülm ilə böyütmüşəm.
Ürəyim tıp-tıp əsib,
Ağlasamda anama.
Ağlamağımı kəsib.
Həyan oldum balama.
Başını sığarlayıb,
Ürəyimə sıxaraq.
Onun könlünü alıb,

Mən evimdən çıxmışam.
Günəş doğduğu zaman,
Anam köçüb dünyadan.
Mən Günəşdən küsmüşəm,
Anam öldüyü zaman.
Sanki ağzım acıydı,
Dad almırdım heç nədən.
İstəmirdiki də mən,
Deyib güləm kimsəynən.
Elə bil boşalmışdı,
Bomboş olmuşdu dünyam.
29 Apreldə,
Anam gültək solmuşdu.
Dönüb mələk olaraq,
Cənnətinə uçmuşdu.
Aylar ötüb keçsədə,
Gülmürdü mənim üzüm.
Kəndimizə gedəndə,
Gəzirdim üzgün-üzgün.
Evimizə girəndə,
Tapammırdım anamı.
Anamında yerinə,
Qucaqlardım atamı.
Mənim qəm çəkdiyimi,
Atam hiss eyləyərdi.
Bir az səbirli olun,
Astaca söyləyərdi.
Bu dünyadan bezməyin,
Üzgün-üzgün gəzməyin,
Hər bir dərdin dərmanı,
Əlacıdır vaxt, zaman.
İllər öfüb keçdikcə,
Sağalacaqdır yaran.

Bir az səbirli olsan,
Güc verəcək Yaradan.
Bax belə münval ilə,
Ötüb keçdi fəsillər.
Allahın izni ilə,
Böyüdü gənc nəsillər.
Birdə baxıb gördüm ki,
Böyüyüb mənim qızım.
Elçi gəlibdi bizə,
Gülüş qonubdu üzə.
Günlər quş kimi uçdu,
Gülsümüm gəlin köçdü.
Bax belə münval ilə,
Aylar illər ötüşdü.
Anam öldüyü ildən,
Artıq beş il ötmüşdü.
Sübh səhər tezdən yenə,
Bir xəbər gəldi mənə.
Səhər söküləndə dan,
Günəş doğduğu zaman.
Telefona zəng gəldi,
Yüyürərək götürdüm.
Telefonda Gövhərdi,.
Gövhər mənim həm bacım.
Həmdəki qudam idi,
Gülərək sevinərək,
Yenə əhval sormadan,
Muştuluğum ver dedi.
Nəvəmiz doğulubdu.
Gözümüz aydın dedi,
Nəvəmizin adını.
Səbuhi qoyduq dedi,
Məndə çox sevinərək,

Muştuluğun göz üstə.
Ürəyin nə istəyir,
Onuda məndən istə.
Sevincim aşdı daşdı,
Göz yaşım giləlləndi.
Elə bildim səmadan,
Evimə nur ələndi.
Sevindimki çox şükür,
Nənələrə qarışdım.
Elə həmin andanda,
Mən Günəşlə barışdım.
Axı gün doğan zaman,
Nəvəm gəldi dünyaya.
Mən şükür eyləyirəm,
Allah verdiyi paya.
Şükür artıq böyüyüb,
İgid olubdur nəvəm.
Universitet bitirib,
Əsgər borcunu verib.
Onunla öyünürəm,
Hələ bir arzum qalıb.
Onun toyunu görəm,
Allah bunu da verər.
İnşəllah sevinərəm,
Qol qaldırıb oynaram.
Bircə ildəndə sonra,
Yenə söküləndə dan.
Günəş doğduğu zaman,
Bir körpə səsi gələr.
Ulu nənə olaram,
Mən buna inanıram.
Şükr edib  Allaha,
Mən səcdəyə gedirəm.

Bu yazdığım dastanın,
Burda sonun verirəm.
Bunu oxuyan kəsə,
Mən təşəkkür edirəm.
Başıma nələr gəlib,
Mən günəşdən küsmüşəm,
Qısaca danışmışam.
Bilin əziz dostlarım,
Artıq neçə ildir ki,
Yurdumuza nur saçan,
Günəşlə barışmışam.

***22 05 2022***

## SƏNLƏ YOL YOLDAŞIYAM

Sən mənə söylədinki,
Keçmişimdə qalmısan.
Axı necə unutdun,
Mənə əziz olmusan.
Ürəyim məndə deyil,
Onu məndən almısan.
Sevgi nəğmələrini,
Qulağıma çalmısan.
Ruhumu məndən alıb,
Yanar oda salmısan.
Necə keçmişdə qalım,
Sənlə yol yoldaşıyam.
Qəlbində nəğmə çalan,
Könlünün sirdaşıyam.
Bircə sözdən inciyib,
Araya küsü salmısan.

Birdə mənə söyləmə,
Sən keçmişdə qalmısan.
Onu bil ki mən sənlə,
Birlikdə qocalmışam.
Mənimlə keçirdiyin,
O gözəl aylar, illər.
Dil açıb pıçıldayan,
O şirin xatirələr.
Yadına salar məni,
İstəməsən də əgər.
Xəyalım yanındadır,
Ömrünün hər çağında.
Xəyallarım gəzəcək,
Sənlə sevgi bağında.
Gözlərini yumanda,
Gözünə dolacağam.
Sən məni düşünərək,
Mənimlə qalacaqsan.
Titrəyəcək ürəyin,
Buludtək dolacaqsan.
O nəmli gözlərinlə,
Yoluma baxacaqsan.
İstəməsəndə yenə,
Sən məni anacaqsan.
Ötüb keçən günləri,
Yadına salacaqsan.
Onda mənim yoxluğum,
Yandıracaqdı səni.
Yenə mənim həsrətim,
Yandıracaq  sinəni.
Bunu yadında saxla,
Ey könlümün həmdəmi.
Heç zaman unudammaz,

Qəlbən sevən sevəni.
O keçən xatirələr,
Mənsiz buraxmaz səni.
Sevənləri ayırar,
Ancaq ki ölüm dəmi.
Birdə mənə söyləmə,
Keçmişimdə qalmısan.
Ömrümün hər anında,
Sən mənimlə olmusan.
Necə keçmişdə qalım?
Sənlə yol yoldaşıyam.
Ürəyinin istisi,
Gözlərinin yaşıyam.
Gəncliyinin dostuyam,
Qocalıq yaddaşıyam.
Qəlbində yatan sevgin,
Ömür gün yoldaşınam.
Qırx yeddi il yol gələn,
Sənin yol yodaşınam.

***02 12 2021***

## ELÇİYƏ NAZ SATMAYIN

***(Taleyindən küsmüş bir xanımın dilindən)***

Ötüb keçdi gəncliyim,
Dönməz bir daha geri.
Saçlarıma iz salıb,
Ötən illər hər biri.
Beynim elə qaynayır,
Fikir çox, çözümdə yox.
Gözlərimi yummadan,
Qarşıladım səhəri.

Gözlərimin önündə,
Keçmişim varaqlanır.
Buza dönmüş ürəyim,
İlk eşqin soraqlayır.
Təkəm, yalqız otaqda,
Bədənim tir-tir əsir.
Üşüyürəm yataqda,
Soyuq bıçaqtək kəsir.
Dayanıbdır bir cavan,
Açıb eşqin söyləyir.
Elə məğrur firəvan,
Əllərində gül tutub.
Mənə dəstə bağlayıb,
Mən ona yox deyəndə,
Ürəyində ağlayıb,
İndi ahıl yaşımda.
Onlar düşüb yadıma,
İsinirəm mən bir an.
O, an yetir dadıma,
Mən bu ilkin sevgini,
Heç vaxt unutmamışam.
Onu əziz, körpətək,
Qəlbimdə yatırmışam.
Hər kəsə naz edərək,
Qarıyıb qocalmışam.
İndi soyuq yataqda,
Mən təkcənə qalmışam.
Mənim bu keçdiyim yol,
Çox gənclərə görk olsun.
Elçiyə naz satan qız,
Mənə baxıb dərs alsın.
**Müəllifdən**
Tale həmişə gülmur,

Hər insanın üzünə.
Gərək bir yuva qursun,
Hər bir cavan özünə.
Qəribliyə salmayın,
Sizlər mənim sözümü.
Söyləmişəm hər zaman,
Mən sözlərin düzünü.
Sadə dildə yazmışam,
Oxuyanlar anlasın.
Naz satan qızlarını,
Anaları danlasın.
Anlatsın  övladına,
Allahın qanununu.
Məndə burda verirəm,
Bu dastanın sonunu.
Qumruyam, çatdırıram,
Sizlərə bu dastanı.
Vaxtında ailə qurun,
Sevinsin ana-ata ...
Yormayın anaları...
Yormayın ataları...

***05 07 2010***

## QORXMAZ İGİD İDİ BİZİM HİDAYƏT

***(Birinci Vətən müharibəsində Şəhid olmuş  baş leytinant Mirzəyev Hidayət Əziz oğlunun əziz xatirəsinə)***

Min doqquz yüz qırx üçüncü ildə,
Qərbi Azərbaycanda,
Vedi rayonunun Sidli kəndində,
Göz açmışdı bu dünyaya Hidayət.
Böyüyüb on illik məktəb bitirdi,

Hərbi xidmətədə getdi Hidayət.
Hərbi xidmətini bitirib gəldi,
Oxumaq arzusu heç tükənmədi.
Bu igid, bu qorxmaz, bu cəsur insan,
Oxumaqçün Novosibirskiyə məktəbə getdi.
Orda dörd il oxuyaraq,
Ali milis məktəbini bitirdi.
O, çox həvəsliydi, yorulmaz idi,
Samboya, güləşə, məşqə gedirdi.
Neçə yarışlarda yer də tutmuşdu,
Bir neçə yarışda medal almışdı.
Neçə il yaşadı Növosibirskidə,
Sonradan yenə də yurda qayıtdı.
Nə qədər çalışqan insan olsada,
Nə qədər dolanıb iş axtarsada,
Öz ixtisası üzrə iş vermədilər,
Nə qədər haqsızlıq gördü orada.
İşsizdə yaşadı, hərdən arada,
Adi sürücütək bir az çalışdı.
Ona işıq verib gün vermədilər,
Öz ana yurdunda yadtək yaşadı.
Gördüki dəyişir burda hər səhər,
Doğma kənd adlar, şəhər adları.
Dağın da, çayın da adı dəyişir,
Azəri olana yer yoxdu burda.
Azəri olanla diğa öcəşir,
Dözmürdü Hidayət bu əməllərə.
Söz demək olmurdu ermənilərə,
Hara getsin, sözünü  kimə desin?
Şikayət eyləsin o kimdən kimə?
Hər tərəf erməni mənfur qonşular,
Hər yerdə qəlbi daş zalım məmurlar.
Bezdirdi axır ki bizim igidi,

Burada yaşamaq çətindir dedi.
Bunların əlindən yığıldım cana,
Baş alıb gedəcəm Azərbaycana.
Dözə bilmir artıq zülmə zalimə,
Yurdundan baş alıb köçür Hidayət.
Min doqquz yüz səksən üçüncü ildə,
Ailəsi ilə birlikdə,
İsmayıllı rayonuna köçür Hidayət.
Mehdikənd kəndində o məskunlaşır,
Neçə il işləyir, burda çalışır.
Min doqquz yüz səksən səkkizdə,
Ermənilər baş qaldırdı yenə də.
Qaçqınlıq, köçkünlük baş alıb getdi,
Hidayətin Şidli adlı kəndində.
Ermənilər kəndlilərə zülm etdi,
Bu yer etdi bizim igid insana.
İçində qovruldu o yana-yana,
İllər ötdü müharibə qızışdı,
Hidayətin nifrəti aşdı, daşdı.
Bu igid dözməyib bu dəhşətlərə,
İstəyirdi dərs versin o vəhşilərə.
Səhərəcən gözü yuxu almadı,
Hey vurnuxdu bir an aram olmadı.
Səhər tezdən o qalxaraq ayağa,
Dedi gözlə mən gəlirəm ey dığa.
Min doqquz yüz doxsan birinci ildə,
Öz arzusu o öz istəyi ilə,
Ağdam şəhərinə tərəf yüyürdü,
Qatır Məmməd ləğəbiylə tanınan,
Yaqub Məmmədovun dəstəsinə yetirşdi.
Çox döyuşdə o şücaət göstərib,
İyirmi ermənini birdən öldürdü.
Bizim Şəhid əsgərlərin nəşini,

Erməni əlindən alıb Hidayət.
Böyük oğlu Elmirdə böyüyürək,
Əsgərlik yaşına gəlib çatmışdı.
Elmir xidmətinə Ağdərədə başlayır,
Atası Elmirdən nigaran qalır.
Ağdamdan ayrılıb, bizim Hıdayət,
Xidmətinə Ağdərədə başlayır.
Xosrov Mustafayevin batalyonunda,
Elmir ilə o birlikdə döyüşür.
Orda vedililər çox olduğundan,
Bu batalyon "didərginlər" adlanır.
Bir gün yenə döyüşlərin birində,
Oğlu ilə döyüşürdü yan-yana.
Düşmənlərin yüzdən çox cəsədini,
Beş döyüs maşının saldı yan-yana.
Mühasirədə qalan yoldaşlarını,
Qurtarmaqçün özün atdı meydana.
Ölümdən qorxmurdu bu igid aslan,
Bəlkədə ölümün özü qorxurdu ondan.
Düşmən göz açmağa aman vermirdi,
Batalyona burda tələ qurmuşdu.
Hidayət özüdə yaralanmışdı.
Ayağından iki güllə yarası,
Yenə də düşmənlə o döyüşürdü.
Mühasirədən çıxardı yoldaşlarını,
Elə həmin yerdə o döyüşlərdə,
Min doqquz yüz doxsan üçüncü ildə.
Yaz bahar ayında, martın beşində,
Bir neçə igidlə bizim Hidayət.
Döyüşdə kişitək Şəhid olmuşdu,
Çox qızğın, çox çətin bu döyüşlərdə.
Nəşləri gətirmək çox çətin oldu,
Orda dəfn etdilər əziz Şəhidi.

Əzəli torpaqda o sakin oldu,
Nə qədər bilirdim mən yazdım onu.
Bilin  bu dastanın çatmayıb sonu,
Onu tanıyanlar onu bilənlər.
Yazaraq gənc nəslə çatdırın bunu,
Şəhidə min rəhmət deyərək məndə.
Allaha tapşırdım mən oxucumu,
Deyirlər dünyada nişanəsi var.
Üç oğlu, bir qızı gülparəsi var.
Doqquz nəvəsi var, Allah saxlasın.
İnşəllah qayıdıb Şidil kəndində,
Şəhidin büstünü onlar ucaldar.

***12-11-2022***

# MÜNDƏRİCAT


**Qumru Qüdrət........................................................ 1**
**Günəşlə barışmışam .............................................. 1**
**Ön söz .................................................................... 4**
**Ona sən sevdirdin ana Vətəni ............................... 9**
**Ulu Öndərim ......................................................... 10**
**Mehribanım .......................................................... 11**
**Yer ağlasın, göy ağlasın ...................................... 12**
**Şəhidlərə qurban dedik........................................ 13**
**Şəhid xəbiri gəldi ................................................ 14**
**Ayrılmışam ağır eldən......................................... 15**
**Xudayar ................................................................ 16**
**Ona sən sevdirdin ana Vətəni ..............................17**
**Şəhid balasının kiçik toyuna ............................... 19**
**Şuşa ...................................................................... 20**
**Şəhidlərim............................................................. 20**
**Can Şəhidim, Səbuhi can ..................................... 21**
**Şəhid olsam məğrur dayan .................................. 23**
**Ana harayı ............................................................ 24**
**Şahbuzun çölləri ................................................... 25**
**Arəstə.................................................................... 26**
**Sən qürür duy, ay ana! ......................................... 27**
**Arxasız qalmışam ................................................. 28**
**Döyüş adın oldu Aslan.......................................... 29**
**Örnək olmalıyam .................................................. 30**
**Al qırmızı qərənfilsən .......................................... 31**
**Sevərək yaşasınlar ................................................ 34**
**Gələcəm sənə özüm............................................... 35**
**Əlini ver əlimə ...................................................... 36**
**Sən getdin.............................................................. 36**
**İlahi sevgi.............................................................. 38**
**Adətdir bil ............................................................ 39**

**Dastana dönübdü məhəbbətimiz .......... 40**
**Ümüdlərim puç oldu .......... 41**
**Eşqdən yazaram .......... 42**
**Çox gözlədim yarım səni .......... 43**
**Məhəbbətin qatili .......... 44**
**Sevərək yaşasınlar .......... 45**
**İnan yarım .......... 46**
**Gəlməyəcəyəm .......... 47**
**Belə keçdi mənim ömrüm .......... 48**
**Məni ağlar qoyub getdin .......... 49**
**Bülbül kimiyəm .......... 51**
**Susub qalmışam .......... 52**
**Hara qaçdın gəncliyim? .......... 54**
**Yetmişin mübarək .......... 55**
**Kaş yanımda olaydı .......... 56**
**Yaşayırsan mənimlə .......... 57**
**Kitaba hörmət et .......... 58**
**Aylinə təbrik .......... 59**
**Babasının adıdır o .......... 60**
**Sığındım Allahın iradəsinə .......... 61**
**Yenidən doğ Günəş .......... 62**
**Xalqın səni sevir .......... 63**
**Şukr edək Rəbbimizə .......... 64**
**Bağışla Allahım .......... 65**
**Yaşayacam sizlərlə .......... 66**
**Altmış yaşın mübarək .......... 67**
**Hara qaçdın gəncliyim? .......... 68**
**Qardaşımın nəvələri .......... 69**
**Vəcdəyə gəldim .......... 70**
**Tələsmə .......... 71**
**Çıxar eynəyini .......... 73**
**Mən olmasam dünyada .......... 74**
**Rahat yat gülüm .......... 76**

Sən yüz yaşa ........ 77
Nərgizlərim ........ 77
Mənim axtardığım anadır, ana ........ 78
Ləqəbim yetim ........ 79
Qəmdən yazma ........ 81
Sevinc ilə yaz ........ 82
Buyurun gəlin ........ 83
Biz ürəkdən təbrik edək ........ 83
Təkəbbürlü olma ........ 84
Bayram ayı ........ 86
Uçum gəlim ........ 87
Yaradıb Allah ........ 88
Tənha çiçək ........ 89
Sənsizəm ay ana, başım dumandı ........ 90
Ölərəm yazmayanda ........ 92
Çöllərimə yaz gəlir ........ 94
Ramazan rəhmət ayı ........ 95
Poemalar ........ 97
Sənlə yol yoldaşıyam ........ 98
Ana ........ 98
Dönmə Azərbaycana ........ 100
Günəşlə barışmışam ........ 105
Sənlə yol yoldaşıyam ........ 110
Elçiyə naz satmayın ........ 112
Qorxmaz igid idi bizim Hidayət ........ 114